RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 144 (9311) 13 İYUL 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Prezident qətiyyəti

## İlham Əliyev xalqın maraqlarını təmin edən siyasətin hər zaman prioritet olduğunu bir daha təsdiqlədi

**Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən bu ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı hər zaman olduğu kimi, görülən işlərin, həyata keçirilən sosial-iqtisadi layihələrin, mütərəqqi islahatların nəticələrini dəyərləndirdi, eləcə də qarşıdakı dövr üçün hədəfləri müəyyənləşdirdi.**

İlham Əliyev proqram xarakterli çıxışında Ermənistanla sülh müqaviləsinin imzalanma prosesinin son nəticələri barədə xalqa məlumat verdi, eyni zamanda ölkə gündəmində olan bəzi sosial-iqtisadi proseslərlə bağlı göstəriş və tapşırıqlarını diqqətə çatdırdı.

### Azərbaycanın sülh danışıqları ilə bağlı mövqeyi aydındır, məntiqlidir

Bu bir həqiqətdir ki, hazırda Azərbaycan regionda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan bölgənin yeganə ölkəsi olaraq düşünülmüş nümunəvi daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi potensialını artırır, həm də regional təhlükəsizliyin təmini istiqamətində ardıcıl, sistemli və mətin addımlar atır.

→ 8

# Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri müvəffəqiyyətlə davam edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.

→ 2

# Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir

**İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Numan Kurtulmuş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Türkiyədə keçirilmiş prezident və parlament seçkilərində qələbə münasibətilə bir daha təbriklərini çatdırdı.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı.

Numan Kurtulmuşun səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyi qeyd olundu. Söhbət zamanı Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsinin, bu təşkilat və TÜRKPA formatında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

# Azərbaycan polisi ictimai təhlükəsizliyin təminatçısıdır

**İyulun 11-də cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bir çox məsələlərə toxunan Prezident İlham Əliyev Gədəbəy rayonunda baş vermiş hadisə ilə bağlı da fikirlərini bildirdi.**

Baş vermiş hadisəni tamamilə qəbuledilməz adlandıran dövlət başçısı qeyd etdi ki, bütövlükdə həm təxribatçıların hərəkətləri, həm xarici şirkətin, həm də aidiyyəti qurumların fəaliyyəti qəbuledilməzdir: "Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir. İndi bəziləri ağızlarını büzürlər. Gedin, açın gözünüzü baxın, Amerika polisi ildə neçə nəfəri öldürür - 1000 nəfəri. Fransa polisi neçə nəfəri öldürür və nəyə görə öldürür? Bu yaxınlarda Fransa polisinin əməllərini bütün dünya gördü. Mən onlara bəraət qazandırmıram, o dözülməzdir. Əfsuslar olsun ki, insanları öldürən o polisin mütləq əksəriyyəti məsuliyyətdən yayınır. Bir müddətdən sonra onları ya ümumiyyətlə məhkəmədə buraxırlar, ya da ki, şərti iş verirlər. Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur".

Prezident Daxili Qoşunların İkinci Qarabağ müharibəsində də şəhid verdiyini xatırladaraq bildirdi ki, kiminsə Azərbaycan polisinə ləkə yaxmasına heç vaxt imkan verilməyəcək.

Məsələ ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Polisi gözdən salmaq aksiyası milli mənafelərə uyğun deyil

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin sədrliyi ilə yarım ilin sosial-iqtisadi yekunlarına dair keçirilən müşavirə respublikamızda həm daxili iqtisadi-sosial idarəetmə, həm də regional və beynəlxalq münasibətlər sistemi ilə bağlı çox fundamental və gələcək milli həyatımızı təyin edən məsələlərin geniş şəkildə açıqlanması ilə yadda qaldı.

→ 8

# Region Ermənistanın ekoloji terroru ilə üz-üzədir

BMT-yə üzv dövlətlər təmiz hava, təhlükəsiz içməli su və sanitariya kimi amilləri sağlamlığın ətraf mühit amilləri kimi tanıyıb. Eyni zamanda BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ hesab edir.

Lakin Ermənistan bu ekoloji cinayətləri törətməklə, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin tamamilə əleyhinə çıxış edir. Bundan başqa, Azərbaycan tərəfinin razılığı olmadan sərhəddə belə bir zavodun tikintisi 1991-ci ildə qəbul olunmuş Espo Konvensiyasına da ziddir. Həm Azərbaycan, həm də Ermənistan bu konvensiyanı imzalayan dövlətlərdəndir. Espo Konvensiyasına uyğun olaraq, zavodun ətraf mühitə təsirinin hərtərəfli qiymətləndirilməsi aparılmalıdır. Bu barədə Prezident İlham Əliyev ötəngünkü müşavirədə fikirlərini qətiyyətlə ifadə etdi.

→ 10

# Zaman keçdikcə BTC daha əzəmətli görünür

Prezident İlham Əliyev BTC-nin istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək demişdir: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

Hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC Xəzərin digər regional xam neft və kondensat həcmlərini (Qazaxıstan və Türkmənistan) də nəql edir.

→ 9




# Sürətli, operativ və təhlükəsiz...

## Azərbaycanın dəmir yolu infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin ən mükəmməl seqmentidir

Azərbaycan son onilliklərdə həm Qədim İpək yolu üzərində, həm də şimal-cənub istiqamətində olduqca güclü, təkmil və bir-birini tamamlayan nəqliyyat infrastrukturları yaradıb. İstər dəmir yollarımız, istər avtomobil yollarımız, istərsə də hava limanlarımız ən müasir standartlara cavab verir. Eləcə də Azərbaycan olduqca mükəmməl logistik imkanlara malikdir. 2018-ci ildə istifadəyə verilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi Azərbaycanın logistik imkanlarını daha da artırıb.

→ 9

# Sərhəd tanımayan qlobal bəla

2022-ci il ərzində hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi ilə bağlı 276 fakt aşkar edilib. Bu faktlar üzrə dövriyyədən təxminən 3 ton narkotik vasitə çıxarılıb.

Ölkəmizdə narkomaniyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Mütəmadi görülən tədbirlər, atılan addımlar bu sosial bəlaya qarşı prinsipial və barışmaz mövqenin göstəricisidir. Azərbaycan dövlətinin bu problemlə bağlı müəyyənləşdirdiyi strategiya uğurla reallaşdırılır, bu istiqamətdə qətiyyətli addımlar atılır.

"Ağ ölüm"lə mübarizə üçün hər kəs məsuliyyət daşıyır. Narkomaniya və onun fəsadları ilə bağlı yeniyetmə və gənclərin maarifləndirilməsi, sağlam həyat tərzinin təbliği davamlı olaraq həyata keçirilməlidir. İnsanlığı təhdid edən, sağlamlığa qənim kəsilən, əxlaqi və mənəvi dəyərləri sarsıdan bu bəlaya qarşı birlikdə mübarizə aparmaq çox vacibdir.

→ 10

# Mərkəzi Nəbatat Bağında yenidənqurma işləri müvəffəqiyyətlə davam edir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar











Əvvəli 1-ci səh.

Bildirildi ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən, bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir. Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

Mərkəzi Nəbatat Bağında görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi. Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

# Baş nazir Əli Əsədov TBMM-in Sədri Numan Kurtulmuşla görüşüb



**İyulun 12-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşla görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı 2023-cü ilin hər iki ölkə üçün xüsusilə əlamətdar olduğu bildirilərək cari ildə həm Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, həm də Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illiyinin qeyd olunduğu vurğulanıb.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib.

İki ölkə arasında əlaqələrin dövlət başçılarının səyləri nəticəsində strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı qeyd olunub.

İkitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolu yüksək qiymətləndirilib, Milli Məclislə Türkiyə Böyük Millət Məclisi arasında həm ikitərəfli, həm də beynəlxalq müstəvidə qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğu vurğulanıb.

Görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin ticarət-iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar, turizm və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

# Azərbaycanla Türkiyə hər zaman bir-birinin yanındadır

**İyulun 12-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə iki qardaş ölkənin parlament sədrləri arasında təkbətək görüş olub. Sonra TBMM-in Sədri Heydər Əliyev xatirə zalındakı eksponatlarla tanış olaraq buradakı Xatirə kitabına ürək sözlərini yazıb. Daha sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib.

Spiker Sahibə Qafarova Türkiyə nümayəndə heyətini Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirərək TBMM Sədrini bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib, Türkiyədə keçirilmiş seçkilərdə cənab Rəcəb Tayyib Ərdoğanın yenidən dövlət başçısı seçilməsinin Azərbaycanda da sevinclə qarşılandığını qeyd edib. Milli Məclisin Sədri bildirib ki, bu seçkilərdə Milli Məclisin deputatları da müşahidəçi qismində təmsil olunublar.

Spiker vurğulayıb ki, dövlət başçılarımızın şəxsi dostluq münasibətləri Azərbaycan və Türkiyə qardaşlığının, birliyinin və strateji müttəfiqliyinin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynayır. Sahibə Qafarova Vətən müharibəsindən sonra dost və qardaş ölkələrimizin dövlət başçıları tərəfindən Şuşa Bəyannaməsinin imzalandığını xatırladaraq, deyib ki, bu sənədin imzalanması ilə bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının şahidi oldu.

Milli Məclisin Sədri dövlətlərimizin və xalqlarımızın xoş gündə də, çətin gündə də bir-birinin yanında olduğunu qeyd edərək Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının Türkiyəyə öz qardaş dəstəyini göstərməklə bunu bir daha sübut etdiyini diqqətə çatdırıb.



Görüşdə spiker Sahibə Qafarova işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, sülh prosesinin gedişi barədə də məlumat verib. O, Ermənistanın mövcud reallıqları nəzərə alacağına və Azərbaycanın sülh təşəbbüsünü dəyərləndirəcəyinə inamını ifadə edib.

Azərbaycana TBMM Sədri kimi ilk səfərindən məmnunluğunu bildirən Numan Kurtulmuş qardaş Azərbaycan dövlətinin və xalqının mühüm bir tarixi dövr yaşadığını diqqətə çatdırıb. O bildirib ki, Azərbaycanın öz torpaqlarını 30 illik işğaldan azad etməsi tarixi zəfərdir və Cənubi Qafqaz regionunda bu ölkənin gücünün göstəricisidir.

Numan Kurtulmuş qeyd edib ki, bu gün Türkiyə də mühüm hədəflərə doğru irəliləməkdədir və 100 ildə böyük inkişaf yolu keçib. TBMM Sədri bu ilin fevral ayında Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan dövlətinin və xalqının hər zaman olduğu kimi, Türkiyəyə qardaş dəstəyini yüksək qiymətləndirib.



2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edildiyini xatırladan Milli Məclisin Sədri həmin vaxt Türkiyədə seçki dövrü olmasına baxmayaraq, parlamentin may ayında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş iclasında Türkiyə nümayəndə heyətinin iştirak etməsini yüksək dəyərləndirib.

Spiker deyib ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, parlamentlərimiz arasında da geniş əlaqələr qurulub. Qanunverici orqanlarımız həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edir. Parlamentlərimizin komitələri, dostluq qrupları arasında da sıx əlaqələr mövcuddur. İnanırıq ki, bu ilin aprel ayında Azərbaycan Milli Məclisi ilə Türkiyə Böyük Millət Məclisi arasında imzalanmış Əməkdaşlıq haqqında Saziş münasibətlərimizin inkişafına öz töhfəsini verəcəkdir. Bu saziş Şuşa Bəyannaməsinin parlamentlərarası əməkdaşlığa dair bəndinin həyata keçirilməsi və Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin parlament səviyyəsində də əks etdirilməsi baxımından mühüm bir mexanizmdir.

Görüşdə tərəfləri maraqlandıran digər mövzularda da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra nümayəndə heyətləri xatirə şəkli çəkdiriblər.

***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8, № 4, maddə 307, № 6 (I kitab), maddələr 556, 558, № 7, maddə 711, № 8, maddə 894, № 11, maddə 1206, № 12, maddə 1335; 2022, № 6, maddə 580, № 8, maddələr 824, 828, 833; 2023, № 1, maddələr 7, 22, № 3, maddə 333; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 807-VIQD nömrəli Qanunu) 35.1-ci maddəsinin üçüncü cümləsi dördüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara qəyyum və himayəçi təyin edilənədək qəyyumluq və ya himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2023-cü il*

---

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 880-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 880-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 35.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 880-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609; 2001, № 10, maddə 640; 2003, № 8, maddə 435, № 10, maddə 552; 2004, № 6, maddə 435; 2005, № 2, maddə 64, № 5, maddə 403; 2006, № 7, maddə 590, № 12, maddə 1034; 2007, № 3, maddə 228, № 6, maddə 606, № 11, maddə 1110, № 12, maddə 1246; 2008, № 6, maddə 493; 2009, № 3, maddə 163, № 5, maddə 324; 2010, № 5, maddə 399, № 7, maddələr 610, 628; 2011, № 8, maddə 751; 2012, № 6, maddə 535; 2014, № 6, maddə 626; 2016, № 9, maddə 1464, № 12, maddə 2071; 2017, № 2, maddə 186; 2018, № 1, maddə 43, № 2, maddə 171, № 7 (I kitab), maddə 1448; 2019, № 4, maddə 617, № 7, maddə 1239; 2020, № 5, maddə 540, № 7, maddə 891; 2022, № 8, maddə 863) aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. həmin Məcəllənin 35.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

---

# "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908; 2020, № 5, maddə 507, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1330, № 12 (I kitab), maddə 1425; 2021, № 8, maddə 897, № 11, maddə 1200) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1. üçüncü abzasa "hər iki valideyni" sözlərindən sonra "aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olan" sözləri əlavə edilsin;

1.2. on doqquzuncu abzas iyirminci abzas hesab edilsin və həmin abzasa "qəyyumun (himayəçinin)" sözlərindən sonra ", himayədar valideynin (himayədar ailənin)" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda on doqquzuncu abzas əlavə edilsin:

"himayədar valideyn (himayədar ailə) - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqları Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş qaydada tərbiyə olunması üçün himayəyə götürən yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, ən azı ümumi orta təhsilli, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, Azərbaycan Respublikasının vətəndaşı olan şəxs (ər-arvad);".

2. 3-cü maddə üzrə:

2.1. dördüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün qəyyumlara (himayəçilərə) aylıq, himayədar valideynlərə (himayədar ailəyə) verilən aylıq və birdəfəlik müavinətlərin məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.";

2.2. aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar himayədar valideynlərə (himayədar ailəyə) verildikdən sonra da bu maddədə və bu Qanunun 5 - 8-ci maddələrində nəzərdə tutulmuş təminatlara olan hüquqlarını saxlayırlar.".

3. 7-ci maddənin dördüncü hissəsinə "qəyyumun (himayəçinin)," sözlərindən sonra "himayədar valideynin (himayədar ailənin)," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2023-cü il*

---

# "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 27 fevral tarixli 946 nömrəli, "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 882-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104, № 12 (I kitab), maddə 1467; 2021, № 4, maddə 315; 2023, № 3, maddə 353) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.4-cü bəndə "vəzifəli şəxsləri," sözlərindən sonra "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları," sözləri əlavə olunsun və həmin bənddə "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına (bundan sonra - qəyyumluq və himayə orqanları)" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

3.2. 2.5-ci bənddə "qəyyumluq və himayə orqanları" sözləri "Nazirlik" sözü ilə əvəz olunsun və həmin bəndə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

3.3. 4.2-ci bəndin birinci cümləsində və 4.3-cü bənddə "12" rəqəmləri "12 (on iki)" sözləri ilə əvəz edilsin;

3.4. 5.2-ci bəndə "tərkibi" sözündən sonra "(ailə üzvlərinin sayı, o cümlədən ailədə olan uşaqların yaşı və cinsi)" sözləri əlavə edilsin;

3.5. aşağıdakı məzmunda 15.2-1-ci bənd əlavə edilsin:

"15.2-1. Uşaq onu 3 (üç) aydan az olmayan müddətdə tərbiyə edən qəyyumları (himayəçiləri), habelə himayədar valideynləri tərəfindən övladlığa götürüldükdə Azərbaycan Respublikası Ailə Məcəlləsinin 118.3.3 - 118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil olunmur.".

4. "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1468; 2023, № 3, maddə 349) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adına və 1 - 3-cü hissələrə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın adına "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

---

# "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88; 2001, № 11, maddələr 669, 676; 2002, № 1, maddə 2, № 5, maddələr 237, 243; 2006, № 6, maddə 478; 2007, № 8, maddə 756, № 12, maddə 1197; 2008, № 7, maddə 602, № 8, maddə 701; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 171; 2013, № 3, maddə 229, № 5, maddə 470; 2014, № 11, maddə 1336; 2015, № 5, maddə 497; 2016, № 1, maddə 37; 2017, № 1, maddə 29; 2018, № 12 (I kitab), maddə 2506; 2020, № 7, maddə 826; 2021, № 8, maddə 897; 2023, № 2, maddə 172) 2-ci maddəsinin beşinci hissəsinə "qəyyumun (himayəçinin)," sözlərindən sonra "himayədar valideynin (himayədar ailənin)," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2023-cü il*

---

# "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191; 2019, № 11, maddə 1685; 2020, № 7, maddə 831; 2021, № 8, maddə 895; 2023, № 2, maddələr 197, 207; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 812-VIQD nömrəli Qanunu) 17.1-ci maddəsindən "himayədar ailə," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2023-cü il*

---

# "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 884-VIQD nömrəli Qanununun tətbiqi və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 884-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanunun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1118; 2023, № 1, maddə 51, № 3, maddə 361) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2.1-ci yarımbənddən "(valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum uşaqlar istisna olmaqla)" sözləri çıxarılsın və həmin yarımbəndə "18 yaşınadək uşaqlar;" sözlərindən sonra "valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar;" sözləri əlavə edilsin;

1.2. 1.2.4-cü yarımbənddən "valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar;" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 884-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

## Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Polşanın Krakov şəhərində keçirilən III Avropa Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 900 000 (doqquz yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

2.1. idmançılar arasında rəqabətin səviyyəsi, yarışların çətinlik dərəcəsi, ən yüksək nəticələrə görə medalların sayı nəzərə alınmaqla idmançıların, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə vəsaitin idmançılara hissə-hissə ödənilməsinə dair qaydanı on beş gün müddətində hazırlayıb təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsi ilə ayrılmış vəsaitin bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş qaydaya uyğun olaraq hər bir idmançıya ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

## "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76; 2007, № 10, maddə 933; 2008, № 6, maddələr 464, 475; 2013, № 1, maddə 19, № 6, maddə 618, № 11, maddələr 1240, 1306; 2017, № 7, maddə 1278; 2018, № 3, maddə 400, № 5, maddə 869; 2019, № 3, maddə 380, № 12, maddə 1893; 2020, № 7, maddə 829, № 11, maddə 1331, № 12 (I kitab), maddə 1452; 2021, № 8, maddə 895; 2022, № 6, maddə 584, № 12, maddə 1391; 2023, № 2, maddə 196; Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 683-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.0.1.14-cü, 4.0.2.4-cü, 7.0.10-4-cü, 7.0.14-cü və 11.1.8-ci maddələrin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və müvafiq olaraq aşağıdakı məzmunda 4.0.1.15-ci, 4.0.2.5-ci, 7.0.10-5-ci, 7.0.15-ci və 11.1.9-cu maddələr əlavə edilsin:

"4.0.1.15. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət.";

"4.0.2.5. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət.";

"7.0.10-5. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət - himayədar valideynlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında 0-18 yaş arası uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanıldıqda.";

"7.0.15. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət - himayədar valideynlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanıldıqda.";

"11.1.9. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət - himayədar valideynlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında uşağın himayədar ailəyə verilməsinə dair bağlanılmış müqavilə ləğv edildikdə.".

2. 5.1-1-ci maddədə "maddəsində" sözü "və ya 4.0.1.15-ci maddələrində" sözləri ilə əvəz edilsin.

3. 9.1.11-ci maddədən "təyin edilir" sözləri çıxarılsın, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 9.1.12-ci maddə əlavə edilsin:

"9.1.12. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət - himayədar valideynlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında uşağın himayədar ailəyə verilməsinə dair bağlanılmış müqavilənin qüvvədə olduğu müddətə.".

4. aşağıdakı məzmunda 9.6-cı və 10.2-2-ci maddələr əlavə edilsin:

"9.6. Himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət himayədar valideynlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanıldıqdan sonra ildə 4 dəfə (mart, iyun, sentyabr və dekabr aylarında) ödənilməklə, həmin müqavilənin qüvvədə olduğu müddətə təyin edilir.";

"10.2-2. Bu Qanunun 4.0.1.15-ci və 4.0.2.5-ci maddələrində nəzərdə tutulan müavinət himayədar valideynlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) arasında uşağın himayədar ailəyə verilməsinə dair bağlanılmış müqavilə əsasında himayədar valideynlərdən birinə təyin edilir.".

5. 10.2-ci maddəyə "4.0.1.14-cü," sözlərindən sonra "4.0.1.15-ci, 4.0.2.5-ci," sözləri əlavə edilsin.

6. 12-ci maddə üzrə:

6.1. 12.1-ci maddəyə "müavinətlərin" sözündən sonra "(himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət istisna olmaqla)" sözləri əlavə edilsin;

6.2. 12.2-ci maddəyə "Müavinətlərin" sözündən sonra "(himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2023-cü il*

## "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 881-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli, "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 881-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin:

1.1. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.10-5-ci, 7.0.15-ci, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci və 11.1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 7.0.10-5-ci, 7.0.15-ci, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci və 11.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 881-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 fevral tarixli 373 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 90, № 12, maddə 1034; 2007, № 1, maddə 7, № 10, maddə 942; 2008, № 5, maddələr 373, 374, № 8, maddə 727; 2011, № 7, maddə 633, № 12, maddə 1143; 2016, № 9, maddə 1466; 2019, № 7, maddə 1220; 2020, № 12 (I kitab), maddə 1498; 2021, № 8, maddə 918; 2023, № 1, maddə 84) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.1.6-cı, 7.0.3-cü, 7.0.6-cı, 7.0.7-ci, 7.0.10-5-ci, 7.0.15-ci, 8-ci, 9.1.5-ci, 9.1.6-cı, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci, 11.1.5-ci, 11.1.6-cı və 11.1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Qanunun 7.0.10-5-ci, 7.0.15-ci, 9.1.12-ci, 9.6-cı, 10.2-2-ci və 11.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

4. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454; 2019, № 4, maddə 640; 2020, № 11, maddə 1361; 2021, № 8, maddə 922, № 12, maddə 1361; 2022, № 12, maddə 1448; 2023, № 1, maddə 54) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1.12-ci yarımbəndin 2-ci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.1.13-cü yarımbənd əlavə edilsin:

"1.1.13. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət:

1. himayədar ailəyə verilmiş uşağa (bu Fərmanın 1.1.13-cü yarımbəndinin 2-ci abzasında qeyd olunan uşaqlar istisna olmaqla) görə: 0-6 yaş arası uşağa görə - 355 manat, 7-13 yaş arası uşağa görə - 375 manat, 14-18 yaş arası uşağa görə - 395 manat;

2. himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə: 0-6 yaş arası uşağa görə - 395 manat, 7-13 yaş arası uşağa görə - 415 manat, 14-18 yaş arası uşağa görə - 435 manat.";

4.2. 1.2.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.2.5-ci yarımbənd əlavə edilsin:

"1.2.5. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət - 200 manat.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də, 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də və 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 fevral tarixli 1599 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4,maddə 318, № 8, maddə 922,№ 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871; 2023, № 3, maddə 361; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2146 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndə "reabilitasiyası" sözündən sonra ", himayədar ailə və övladlığagötürmə" sözləri əlavə edilsin;

1.2. 2.1.1-1-ci yarımbənddə "övladlığagötürmə sahəsində" sözləri "himayədar ailə və övladlığagötürmə sahələrində" sözləriilə əvəz edilsin;

1.3. 3.1.57-1-ci yarımbəndə "vahid" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin;

1.4. aşağıdakı məzmunda 3.1.57-6-3.1.57-9-cu yarımbəndlər əlavə edilsin:

"3.1.57-6. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar verilməsini təmin etmək;

3.1.57-7. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görülməsini təmin etmək;

3.1.57-8. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması ilə bağlı tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin etmək;

3.1.57-9. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarının həyata keçirilməsini təmin etmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634; 2020, № 4, maddə 417; 2021, № 5, maddə 445, № 6 (I kitab), maddə 566, № 8, maddə 919, № 10, maddə 1114, № 12, maddə 1406; 2022, № 5, maddə 462, № 7, maddə 761, № 8, maddə 848; 2023, № 3, maddə 347) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.15-ci yarımbəndə "uşaqlar" sözündən sonra ", himayədar ailə" sözləri əlavə edilsin;

2.2. 2.3.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.3.15. "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə" altsistemi vasitəsilə Azərbaycan Respublikası Prezidentinin"Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 10 dekabr tarixli 393 nömrəli və "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" 2022-ci il 15 fevral tarixli 1599 nömrəli fərmanlarına uyğun olaraq, valideyn himayəsindən məhrum olmuş və övladlığa götürülən uşaqların, onları övladlığa götürməyi arzu edən şəxslərin, himayədar ailəyə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) uçotunun, həmçinin övladlığagötürmə və himayədar ailə sahəsində digər xidmətlərin elektron qaydada aparılması;".

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446, № 6 (I kitab), maddə 572, № 8, maddə 923, № 9, maddə 987, № 12, maddə 1403; 2022, № 4, maddələr 323, 329; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 aprel tarixli 2108 nömrəli Fərmanı)ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "habelə" sözündən sonra "himayədar ailə və" sözləri əlavə edilsin;

3.2. 2.1.5-ci yarımbənddə "övladlığagötürmə sahəsində" sözləri "himayədar ailə və övladlığagötürmə sahələrində" sözləri ilə əvəz edilsin;

3.3. 3.1.22-ci yarımbəndə "vahid" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin;

3.4. aşağıdakı məzmunda 3.1.24-1-3.1.24-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.24-1. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar qəbul etmək;

3.1.24-2. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görmək;

3.1.24-3. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması istiqamətində tədbirlər görmək, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarını hazırlamaq;

3.1.24-4. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarını həyata keçirmək;

3.1.24-5. himayədar ailə və valideyn himayəsindən məhrum olmuş uşaqların mənafeyinin müdafiəsi ilə əlaqədar Azərbaycan Respublikasının Ailə Məcəlləsindən irəli gələn digər vəzifələri yerinə yetirmək.".

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

## Azərbaycanda "yaşıl iqtisadiyyat"a keçid əhalinin innovasiyalardan istifadə etmək imkanlarını genişləndirəcək

**Azərbaycanda "yaşıl iqtisadiyyat"a keçid mərhələli şəkildə təmin olunur. Ölkəmizdə dayanıqlı "yaşıl iqtisadiyyat"ın və bərpa oluna bilən enerji mənbələrinin inkişafı üçün əlverişli şərait mövcuddur.**

Hazırda dövlət başçısının rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində kompleks tədbirlərə başlanılıb. Bu tədbirlər sırasına bərpaolunan enerji mənbələrindən istifadə, əhali arasında "yaşıl" məşğulluğun təmini və digərləri daxildir.

Bu barədə AZƏRTAC-a açıqlamasında memar Fəzail Bayramov deyib.

Memar bildirib ki, respublikamızda ilk dəfə tətbiq edilən "Ağıllı kənd" layihəsi 2021-ci ildə işğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilib. "Ağıllı kəndlər" konsepsiyası yerli əhalinin müasir texnologiya və innovasiyalardan istifadə etmək imkanlarını təkmilləşdirmək məqsədi daşıyır.

Onun sözlərinə görə, Ağalı "Ağıllı kənd" layihəsində yüksək keyfiyyətli ekoloji mühit əsas götürülüb və enerjidən səmərəli istifadə edilməsi məqsədilə dayanıqlı enerji mənbələrinə üstünlük verilib. İndiki və gələcək nəsillərin tələbatını doluğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyalar tətbiq edilib: "Kəndin enerji təminatının dayanıqlığının təmin edilməsi üçün Həkəri çayı üzərində hər biri 212 kilovat olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət su elektrik stansiyası inşaat edilib. İsidilmə xərclərinin və istixana qazlarının emissiyasını azaltmaq məqsədilə evlərdə kombinə edilmiş istilik sistemi, suyun isidilməsi üçün isə yaşayış evlərinin üzərində günəş kollektorları quraşdırılıb".

F.Bayramov bildirib ki, "ağıllı kənd"də evlərin xarici divarlarının tikintisində termobloklardan, tavan və döşəmələrinin tikintisində xüsusi izolyasiya materiallarından istifadə olunub. Eləcə də əhalinin sosial rifahının yüksək səviyyədə təmin edilməsi üçün informasiya-kommunikasiya texnologiyalarından maksimum istifadə edilib.

Qeyd olunub ki, "Ağıllı kənd" layihəsinin tətbiq edilməsi kənd yerlərinə yatırılan investisiyanın miqdarını çoxaldacaq, texnoloji yeniliklərin köməyilə məhsuldarlıq artacaq.

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Ailə Məcəlləsində(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7,maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020,№ 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11,№ 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddə 19, № 2, maddələr 192, 207, № 3, maddə 334) aşağıdakı dəyişikliklər edilsin:

1. 51.6-cı maddənin birinci cümləsində "şəxslər və digər vətəndaşlar" sözləri "və digər şəxslər" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 68.4-1-ci maddə əlavə edilsin:

"68.4-1. Bu Məcəllənin 116-1.5-ci maddəsində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valideynlik hüquqlarının məhdudlaşdırılması barədə iddia qaldıra bilər.".

3. 71.2-ci maddədən "himayədar valideynlərin və ya" sözləri çıxarılsın.

4. 72-ci maddə üzrə:

4.1. 72.1-ci maddənin birinci cümləsinə "təhlükədə olduqda" sözlərindən sonra"(bu Məcəllənin 116-1.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

4.2. 72.2-ci maddə üzrə:

4.2.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Uşağı götürən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərhal prokurora və uşağın yerləşdirilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir.";

4.2.2. ikinci cümlədə "Həmin orqan" sözləri"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

5. 114.2-ci maddədə "116.1-ci" sözləri "116-cı" sözləri ilə əvəz edilsinvə həmin maddədən"(övladlığa vermə istisna olmaqla)" sözləri çıxarılsın.

6. 115-ci maddə üzrə:

6.1. 115.2-ci maddə ləğv edilsin;

6.2. 115.7-ci maddədə "115.2-115.4-cü" sözləri "115.1-ci, 115.3-cü və 115.4-cü" sözləri ilə əvəz edilsin.

7. 116-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 116. Valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsi**

116.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 114.1-ci maddəsində qeyd olunan uşaqlar barədə məlumatı aldıqdan sonra 3 (üç) iş günü müddətində uşağın və onun ailəsinin həyat şəraitini, valideyn himayəsindən məhrum olma səbəblərini müəyyən etmək məqsədilə ilkin qiymətləndirilməni həyata keçirir.

116.2. İlkin qiymətləndirmə nəticələrinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakı qərarlardan birini qəbul edir:

116.2.1. uşağın ailəsinin olmamasını və ya ailədə qalmasının qeyri-mümkünlüyünü müəyyən etdikdə, onun bu Məcəllənin 116.6-116.8-ci maddələrinə uyğun olaraq yerləşdirilməsi barədə;

116.2.2. uşağın öz ailəsinə və ya qohumlarına qaytarılmasının və yaxud ailəsində qalmasının mümkünlüyünü müəyyən etdikdə, 14 (on dörd) iş günü müddətində əlavə qiymətləndirmənin aparılması və ailə inkişaf planının tərtibi barədə.

116.3. Ailə inkişaf planında uşağın valideyn himayəsindən məhrum olmasının səbəbləri, onların əhəmiyyətlilik dərəcəsi üzrə bölgüsü, bu səbəblərin aradan qaldırılması üsulları, ailə üçün zəruri hüquqi, sosial, tibbi, tibbi-psixoloji və məişət dəstək tədbirləri qeyd edilir.

116.4. Ailə inkişaf planının tərtibi və icrası müddətində uşağın öz ailəsində qalması onun həyatı və təhlükəsizliyi baxımından məqsədəuyğun hesab edilmədikdə və ya uşağın valideynləri ailə inkişaf planında nəzərdə tutulan tədbirlərin icrasından imtina etdikdə və yaxud uşağı tərbiyə etməkdən boyun qaçırdıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ailə inkişaf planının icrasının dayandırılması və uşağın bu Məcəllənin 116.5-116.7-ci maddələrinə uyğun olaraq yerləşdirilməsi barədə qərar qəbul edə bilər.

116.5. Uşağın valideynləri olmadıqda və ya valideynlərinə qaytarılması mümkün olmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilk növbədə onun qəyyumluğa (himayəyə) verilməsi imkanlarının araşdırılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) dərhal sorğu göndərir.

116.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.5-ci maddəsində qeyd olunan sorğu daxil olduqdan sonra 10(on) iş günü müddətində araşdırma apararaq, uşağın qəyyumluğa (himayəyə) verilməsinin mümkün olub-olmaması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verir.

116.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.6-cı maddəsinə əsasən uşağın qəyyumluğa (himayəyə) verilməsinin mümkün olmadığı barədə məlumatı aldıqdan sonra 10 (on) iş günü müddətində uşağın himayədar ailəyə və ya övladlığa verilməsi, bu mümkün olmadıqda isə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə yerləşdirilməsi barədə qərar qəbul edir.

116.8. Bu Məcəllənin 114.1-ci maddəsində qeyd olunan uşaq aşkar olunan zaman onun sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduqda və təcili yerləşdirilməsi zərurəti yarandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq ilkin qiymətləndirməni aparmadan uşağın təcili yerləşdirilməsi ilə bağlı qərar qəbul edir. Uşaq yerləşdirildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin 116.1-ci maddəsinə uyğun olaraq uşaqla bağlı ilkin qiymətləndirməni aparır.

116.9. Uşağın yerləşdirilməsi zamanı onun fikirləri, maraqları, etnik mənşəyi, müəyyən dinə və mədəniyyətə mənsubiyyəti, ana dili, təhsili və tərbiyəsi üçün daha əlverişli imkanları və yerləşdirmənin uşaq üçün təhlükəsizliyi nəzərə alınmalıdır.

116.10.Valideyn himayəsindən məhrum olmuş uşaqlar bu Məcəllənin116.5-116.7-ci maddələrinə uyğun olaraq yerləşdirilənədək onlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.".

8. Aşağıdakı məzmunda 116-1-ci və 118.16-1-ci maddələr əlavə edilsin:

**"Maddə 116-1. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə yerləşdirilmiş uşaqlarla işin aparılması**

116-1.1. Bu Məcəllənin 116.7-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə yerləşdirilmiş uşağın fərdi, təhsil, sosial-mədəni inkişafını təmin etmək və ailə tərbiyəsinə verilməsinin mümkünlüyünü müəyyənləşdirmək məqsədilə yaşı, sağlamlığı, istək və mənafeləri, bacarıq və digər xüsusiyyətləri nəzərə alınmaqla uşaqla bağlı fərdi inkişaf planı tərtib edir.

116-1.2. Fərdi inkişaf planının tərtibi zamanı 7 yaşına çatmış uşağın fikri nəzərə alınır, eləcə də valideyni və ya qohumları varsa, fərdi inkişaf planının tərtibində onların iştirakı təmin edilir.

116-1.3. Uşağın yerləşdiyi müəssisənin rəhbəri fərdi inkişaf planının hazırlanmasında və icrasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) kömək göstərməlidir.

116-1.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fərdi inkişaf planının icrası nəticəsində uşağın öz ailəsinə və ya qohumlarına qaytarılmasının mümkünlüyünü müəyyənləşdirdikdə ailə inkişaf planı tərtib edir və onun ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə uşaq ailəyə qaytarıldıqdan sonra 1(bir) il ərzində rübdə azı bir dəfə olmaqla ailədə monitorinq aparır.

116-1.5. Bu Məcəllənin116-1.4-cü maddəsinə uyğun olaraq uşağın ailəyə qaytarılmasından sonra aparılan monitorinq nəticəsində uşağın sağlamlığı və ya həyatı üçün birbaşa təhlükə olduğu aşkarlandıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərhal uşağı ailədən alıb bu Məcəllənin 116.8-ci maddəsinə uyğun olaraq təcili yerləşdirir və bu barədə prokurora məlumat verir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) uşağın yerləşdirilməsindən sonra 10 (on) iş günü müddətində məhkəməyə valideynlik hüquqlarından məhrumetmə və ya bu hüquqların məhdudlaşdırılması barədə iddia ilə müraciət edə bilər.";

"118.16-1. Uşaq onu 3 (üç) aydan az olmayan müddətdə tərbiyə edən qəyyumları (himayəçiləri), habelə himayədar valideynləri tərəfindən övladlığa götürüldükdə, bu Məcəllənin 118.3.3-118.3.5-ci maddələrinin tələbləri həmin şəxslərə şamil olunmur.".

9. 119-cu maddə üzrə:

9.1. 119.1-ci maddədə "elektron informasiya sistemində "e-sosial" internet portalı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi" sözləri ilə əvəz edilsin;

9.2. 119.2.8-ci maddəyə "əvvəllər" sözündən sonra "qəyyum (himayəçi), himayədar valideyn və ya" sözləri əlavə edilsin;

9.3. 119.6-cı maddədə "119.2.1-119.2.2-ci maddələrində" sözləri"119.2.2-ci maddəsində" sözləri ilə əvəz edilsin.

10. 120.2-ci maddəyə "Övladlığa götürməyə," sözlərindən sonra "himayədar ailə olmağa," sözləri əlavə edilsin.

11. 136.1-ci maddədə"valideynlərini itirmiş uşaqlara (bu Məcəllənin 114.1-ci maddəsi) "sözləri" bu Məcəllənin 114.1-ci maddəsində qeyd edilən uşaqlara" sözləri ilə əvəz edilsin.

12. Aşağıdakı məzmunda138-1-ci maddə əlavə edilsin:

**"Maddə 138-1. Himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq və himayə**

Himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.".

13. 142-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 142. Himayədar ailənin yaranması**

142.1. Himayədar ailə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə əsasında yaranır.

142.2. Himayədar ailənin yaranması aşağıdakı 3 (üç) mərhələdə həyata keçirilir:

142.2.1. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) uçota alınması;

142.2.2. himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğunun müəyyənləşdirilməsi;

142.2.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin bağlanılması.

142.3. Himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aşağıdakı qaydada müəyyən edilir:

142.3.1. himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) müsahibənin aparılması və həmin şəxsin (şəxslərin) maddi-məişət şəraitinin müayinəsi;

142.3.2. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi;

142.3.3. himayədar valideyn olmaq istəyən şəxsə (şəxslərə) uyğun uşağın və himayədar ailəyə veriləcək uşağa uyğun himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) seçilməsi.

142.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) həyat şəraiti, ailə tərkibi, ailə üzvlərinin himayəyə götürməyə münasibətini öyrənmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində uçota alınma ardıcıllığına uyğun olaraq seçilmiş himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) müsahibə keçirir və bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq həmin şəxslərin maddi-məişət şəraitinin müayinəsini aparır.

142.5. Müsahibədən keçmiş himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən himayədar ailə ilə bağlı müddəti 30 (otuz) gündən çox olmayan təlimlərə cəlb edilirlər.

142.6. Himayədar ailə ilə bağlı təlimlərdən keçmiş himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) 1 (bir) il müddətində himayədar ailə olmaq üçün təkrar müraciət etdikdə təlimlərə cəlb edilmir.

142.7. Himayədar ailə ilə bağlı təlimin nəticələri bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qayda ilə müəyyən edilən meyarlara əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qiymətləndirilir.

142.8. Təlimin nəticələri müsbət qiymətləndirildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) və himayədar ailəyə veriləcək uşağın istək və mənafeyini nəzərə almaqla, himayədar valideyn olmaq istəyən şəxsə (şəxslərə) uyğun uşaq və himayədar ailəyə veriləcək uşağa uyğun himayədar valideyn seçir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi yerdə sosial işçinin iştirakı ilə onların görüşünü təşkil edir.

142.9. Bu Məcəllənin 142.8-ci maddəsində nəzərdə tutulmuş görüşün nəticəsinə dair sosial işçinin hesabatı nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideyn olmaq istəyən şəxslə (şəxslərlə) uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlayır. Himayədar ailəyə tərbiyə üçün yalnız yetkinlik yaşına çatmayanlar və yalnız bu maddəyə uyğun olaraq bağlanılmış müqavilədə nəzərdə tutulmuş müddətə verilə bilərlər.

142.10. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilədə uşağın sağlamlıq vəziyyəti, onun yaşayış, tərbiyə və təhsil şəraiti, himayədar valideynlərin və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) hüquq və vəzifələri, bu müqavilənin müddətinin uzadılması, ləğv olunmasının əsasları və nəticələri qeyd edilir.

142.11. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə himayədar ailəyə verilmiş uşaqların müvəqqəti olduqları yer, yəni himayədar ailənin yaşadığı yer üzrə qeydiyyata alınması üçün əsas hesab edilir.

142.12. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin formasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.

142.13. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayəyə götürülmüş hər bir uşağa görə himayədar valideynlərə onların himayədar valideyn olduğunu təsdiq edən və üzərində himayədar valideynlərin, himayəyə verilmiş uşağın soyadı, adı, atasının adı vəfotoşəkliəks olunmuş vəsiqə təqdim edir.

142.14. Himayədar valideynlərə verilən vəsiqənin nümunəsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir.".

14. Aşağıdakı məzmunda 142-1-ci maddə əlavə edilsin:

**"Maddə 142-1. Himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin)uçotu**

142-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparır.

142-1.2. Bu Məcəllənin 142-1.1-ci maddəsində qeyd edilən vahid informasiya bazasında aşağıdakı məlumatlar əks olunmalıdır:

142-1.2.1. himayədar ailələrə verilmiş uşaqların soyadı, adı, atasının adı, cinsiyyəti, doğum tarixi, doğulduğu yer, FİN-i, qeydiyyat ünvanı, vətəndaşlığı və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) soyadı, adı, atasının adı, FİN-i, qeydiyyat ünvanı, faktiki yaşadığı ünvan;

142-1.2.2. himayədar ailələrə verilmiş uşaqların və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) sağlamlıq vəziyyəti barədə məlumatlar;

142-1.2.3. uşağın əvvəllər qəyyumluğa (himayəyə), himayədar ailəyə və ya övladlığa verilib-verilməməsi barədə məlumatlar;

142-1.2.4. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) təhsili (peşəsi),iş yeri, vəzifəsi barədə məlumatlar;

142-1.2.5. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) məhkumluğunun olub-olmaması barədə məlumatlar;

142-1.2.6. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) yaşayış şəraiti, gəlirləri və maliyyə öhdəlikləri barədə məlumatlar;

142-1.2.7. himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) əvvəllər qəyyum (himayəçi), himayədar valideyn və ya övladlığa götürən şəxs olub-olmaması barədə məlumatlar;

142-1.2.8. uşağın himayədar ailəyə verilməsi barədə müqavilənin müddəti barədə məlumat.

142-1.3. Bu Məcəllənin 142-1.2-ci maddəsində qeyd edilən məlumatlar bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) əldə edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həmin məlumatların mütəmadi yenilənməsi təmin edilir. Bu mümkün olmadıqda həmin məlumatlar "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq əldə edilir.

142-1.4. Bu Məcəllənin142-1.2.2-ci, 142-1.2.4-142-1.2.7-ci maddələrində qeyd edilən məlumatlar himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) tərəfindən təqdim edildiyi halda həmin məlumatlar 6 (altı) ay müddətində etibarlıdır.

142-1.5. Himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) bu Məcəllənin 142-1.2.1-ci, 142-1.2.2-ci və 142-1.2.4-142-1.2.7-ci maddələrində qeyd olunan məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyırlar.

142-1.6. Bu Məcəllənin 142-1.1-ci maddəsində qeyd edilən vahid informasiya bazasında uçota alınmış himayədar ailəyə verilmiş uşaqlar uşağın himayədar ailəyə verilməsinə dair müqavilə ləğv edildikdə uçotdan çıxarılırlar.

142-1.7. Himayədar valideynlər aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən uçotdan çıxarılırlar:

142-1.7.1. öz müraciətləri əsasında;

142-1.7.2. vəfat etdikdəvə yaxud məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə;

142-1.7.3. bu Məcəllənin 142-1.5-ci maddəsinə uyğun olaraq bilə-bilə təhrif olunmuş və ya düzgün olmayan məlumat təqdim etdikdə, bir il müddətinə;

142-1.7.4. bu Məcəllənin 142.3.1-ci maddəsinə uyğun olaraq müsahibədən himayədar valideyn olmaqla bağlı məqsədlərinin uşağın mənafeyinə uyğun olmaması səbəbindən keçmədikdə;

142-1.7.5. bu Məcəllənin 120.1.6-cı maddəsində qeyd edilən cinayət əməllərinin törədilməsinə görə məsuliyyətə cəlb edildikdə;

142-1.7.6. bu Məcəllənin 120.2-ci maddəsi ilə müəyyən edilən xəstəliklərdən birinə tutulduqda;

142-1.7.7. barəsində cinayət təqibi üzrə icraat aparılan şəxslər, cinayət təqibi müddətində;

142-1.7.8. bu Məcəllənin 144.2-ci maddəsinə uyğun olaraq ailədə adambaşına düşən ortaaylıq gəlir ailə üzvlərinin hər biri üçün ölkə üzrə müəyyən olunmuş yaşayış minimumu məbləğindən az olduqda;

142-1.7.9. bu Məcəllənin 144.3-cü maddəsinə uyğun olaraq yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olduqda;

142-1.7.10. himayədar ailəyə verilmiş uşaqla birlikdə yaşayacağı yaşayış sahəsinə tələb yönəldildikdə;

142-1.7.11. bu Məcəllənin 143.2.1-143.2.3-cü maddələrində qeyd olunan hallarda uşağın himayədar ailəyə verilməsinə dair müqavilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən birtərəfli qaydada ləğv edildikdə.

142-1.8. Himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) notarial qaydada təsdiq edilmiş ərizəsi bu Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edildiyi andan himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) uçota alınır. Himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) ərizəsinin forması və həmin ərizədə əks olunmalı olan məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

142-1.9. Himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) ərizədə qeyd etdiyi məlumatlarda, o cümlədən ailə tərkibində, eləcə də onların faktiki yaşadığı ünvanda dəyişiklik olduqda, himayədar valideyn olmaq istəyən şəxs (şəxslər) həmin məlumatları yeniləməklə, yeni ərizə ilə bu Məcəllənin 142-1.8-ci maddəsinə uyğun olaraq yenidən müraciət etməlidir.

142-1.10. Bu Məcəllənin 142-1.7.4-cü maddəsinə əsasən uçotdan çıxarılmış şəxslər azı 1 il keçdikdən sonra himayədar ailə olmaq üçün təkrar müraciət edə bilərlər.".

15. 143-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 143. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin ləğv edilməsi**

143.1. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə himayədar valideynlərin uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin ləğv edilməsi barədə müraciəti (xəstəlik vəailə vəziyyətinin dəyişməsi, himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) yaşayış şəraiti, gəlirləri və aliment, kredit və digər maliyyə öhdəliklərində əhəmiyyətli dəyişikliklər baş verdikdə, uşaqla qarşılıqlı anlaşmanın olmaması, uşaqlar arasında münaqişəli vəziyyət olması səbəblərinə görə), həmin müqavilənin müddətinin başa çatması, himayədar valideynlərin və ya himayədar ailəyə verilmiş uşağın vəfat etməsi, o cümlədən bu Məcəllənin 143.2-ci maddəsində qeyd olunan hallarda ləğv edilir.

143.2. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə aşağıdakı hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən birtərəfli qaydada ləğv edilir:

143.2.1. himayədar valideynlər onlara həvalə edilmiş himayədar valideyn vəzifələrini yerinə yetirmədikdə;

143.2.2. himayədar valideynlər və ya onlarla birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirən hərəkətlərə, habelə uşaqların tərbiyəsində onların istismarına, təhqir edilməsinə, mənəviyyatının alçaldılmasına, qəddarlığa, kobudluğa, biganəliyə yol verdikdə;

143.2.3. himayədar valideynlər və ya onlarla birgə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslər alkoqolik və ya narkoman olduqda;

143.2.4. bu Məcəllənin 142-1.7.3-cü, 142-1.7.5-142-1.7.10-cu maddələrinə uyğun olaraq, himayədar valideynlərin uçotdan çıxarılması üçün əsaslar olduqda;

143.2.5. himayədar ailəyə verilmiş 10 yaşına çatmış uşağın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciəti əsasında;

143.2.6. himayədə olan uşağın öz ailəsinə qaytarılması, qəyyumluğa (himayəyə) verilməsi və ya övladlığa götürülməsi ilə bağlı əsaslar yarandıqda.

143.3. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə-müddətinin başa çatması, himayədar valideynlərin təşəbbüsü və ya bu Məcəllənin 143.2.6-cı maddəsinə uyğun olaraq ləğv edildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) 3 (üç) iş günü müddətində uşağın himayədar ailədən alınıb bu Məcəllənin116.8-ci maddəsinə uyğun olaraq yerləşdirilməsi ilə bağlı tədbirlər görür.

143.4. Uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bu Məcəllənin 143.1-ci maddəsinə uyğun olaraq himayədar valideynin vəfat etməsi və ya bu Məcəllənin 143.2.1-143.2.5-ci maddələrinə uyğun olaraq ləğv edildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dərhal uşağın himayədar ailədən alınıb bu Məcəllənin 116.8-ci maddəsinə uyğun olaraq yerləşdirilməsi ilə bağlı tədbirlər görür.".

16. Aşağıdakı məzmunda 143-1-ci və 143-2-ci maddələr əlavə edilsin:

*Ardı 6-cı səh.*

# Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 5-ci səh.*

**"Maddə 143-1.Uşaq himayədar ailəyə verildikdən sonra monitorinq**

143-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayəyə götürülmüş uşağın ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə ayda bir dəfədən az olmamaq şərtilə himayədar ailəyə verilmiş uşaqların vəziyyətinin və himayədar ailə tərəfindən müqavilə şərtlərinə əməl edilməsinin monitorinqini aparır.

143-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) monitorinqləri planlı(qabaqcadan xəbərdar etməklə) və ya plandankənar (qabaqcadan xəbərdar etmədən) həyata keçirir.

143-1.3. Monitorinqlər zamanı ailənin yaşayış şəraiti, maddi vəziyyəti, himayədar ailəyə verilmiş uşağın və himayədar valideynlərin sağlamlıq vəziyyəti, ailədə uşağa qulluq və qayğı vəziyyəti nəzərə alınır.

143-1.4. Monitorinqlər zamanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Məcəllənin143.2.1-143.2.3-cü maddələrində qeyd edilən əsaslardan birini aşkar etdikdə, dərhal uşağın himayədar ailəyə verilməsinə dair müqaviləni birtərəfli qaydada ləğv edir.

**Maddə 143-2. Himayədar ailəyə verilmiş uşağın inkişafı**

143-2.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailəyə verilmiş uşağın maraqları əsasında onun əqli, fiziki, emosional, psixoloji inkişafını təmin etmək, onun bioloji valideynlərinə (bioloji valideynləri olmadıqda isə qohumlarına) qaytarılması imkanlarını qiymətləndirmək məqsədilə himayədar valideynlərin, mümkün olduqda uşağın bioloji valideynlərinin iştirakı ilə uşağın fərdi inkişaf planını hazırlayır.

143-2.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fərdi inkişaf planında olan tədbirlərin vaxtında və keyfiyyətlə icrası məqsədilə uşağın bioloji valideynləri (olduğu halda) və himayədar valideynlərlə mütəmadi iş aparır.

143-2.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar valideynlərin fikrini nəzərə almaqla uşaqla bioloji valideynlərin və ya qohumların görüşünü təşkil edir. Himayədar valideynlər belə görüşlərin keçirilməsi üçün lazımi şərait yaratmalıdırlar.".

17. 144-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 144. Himayədar valideynlər**

144.1. Bu Məcəllənin 120.1.1-120.1.7-ci maddələrində qeyd edilənlər istisna olmaqla, bu Məcəllənin 120.2-ci, 120.3-cü, 121.1-ci və 121.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla, yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, ən azı ümumi orta təhsilli Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları himayədar valideyn ola bilərlər.

144.2. Ailədə adambaşına düşən orta aylıq gəliri ailə üzvlərinin hər biri üçün (himayədar ailəyə veriləcək uşaqlar istisna olmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən az olan şəxslər himayədar valideyn ola bilməzlər (uşaqların öz qohumlarına himayədar ailəyə verilməsi halı istisna olmaqla). Himayədar ailəyə veriləcək uşaqla birlikdə yaşayacağı yaşayış sahəsinə tələb yönəldilmiş şəxslər himayədar valideyn ola bilməzlər.

144.3. Yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olmamalıdır.

144.4. Uşağın qəyyumları (himayəçiləri), bioloji və ya ögey valideynləri himayədar valideyn ola bilməzlər.

144.5. Bir ünvanda iki və daha çox himayədar ailənin (valideynin) yerləşməsinə yol verilmir.

144.6. Bu Məcəllənin 120.1.6-cı, 120.1.7-ci və 120.2-ci maddələrində qeyd olunan tələblər eyni zamanda himayədar valideynlərlə birlikdə yaşayan (ümumi ev təsərrüfatına malik) şəxslərə münasibətdə də tətbiq edilir.".

18. 145-ci maddə üzrə:

18.1. 145.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"145.1. Bu Məcəllənin 119.1-ci maddəsinə uyğun olaraq uçota alınmış valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə edilmək üçün himayədar ailələrə verilə bilər.";

18.2. 145.2-ci maddənin birinci cümləsi çıxarılsın;

18.3. 145.3-cü, 145.4-cü və 145.6-cı maddələr ləğv edilsin;

18.4. 145.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"145.5. Himayədar ailəyə verilmiş uşaqlar bu Məcəllənin 140-cı maddəsində nəzərdə tutulmuş hüquqlara malikdirlər.".

19. Aşağıdakı məzmunda 145.8-145.10-cu, 145-1-ci və 145-2-ci maddələrəlavə edilsin:

"145.8. Öz uşaqları da daxil olmaqla, hər iki valideyni olan himayədar ailədə uşaqların ümumi sayı 5-dən, bir valideyni olan himayədar ailədə uşaqların ümumi sayı 3-dən artıq ola bilməz.

145.9. Himayədar ailələr üçün himayəyə verilmiş uşaqların sayı 3-dən artıq olmamalıdır (bacı-qardaşlar himayəyə götürüldüyü hallar istisna olmaqla).

145.10. Himayədar ailəyə verilmiş uşağın əqli, fiziki, emosional, psixoloji inkişafına xələl gətirə biləcək halların qarşısını almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailəyə verilən uşaqlar arasındakı yaş fərqini nəzərə almalıdır.";

**"Maddə 145-1. Himayədar valideynlərin hüquq və vəzifələri**

145-1.1. Himayədar valideynin (valideynlərin) aşağıdakı hüquqları vardır:

145-1.1.1. uşağın saxlanılmasına görə "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilən aylıq və birdəfəlik müavinəti almaq;

145-1.1.2. uşağın mənafeyinə zidd olan hallar istisna olmaqla, uşaq haqqında tam və dolğun məlumat almaq;

145-1.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tövsiyələrini və uşağın fikrini nəzərə almaqla, onun tərbiyə üsullarını sərbəst müəyyənləşdirmək;

145-1.1.4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) müqavilə üzrə öhdəliklərinin tam və vaxtında icrasını tələb etmək;

145-1.1.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla, onun ümumi orta təhsil alması üçün təhsil müəssisəsini seçmək.

145-1.2. Himayədar valideynin (valideynlərin) aşağıdakı vəzifələri vardır:

145-1.2.1. mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilən təlimlərdə iştirak etmək;

145-1.2.2. uşağı tərbiyə etmək, onun fiziki və psixi, mənəvi və əxlaqi inkişafının, sağlamlığının qeydinə qalmaq, uşağa ailə mühitində qayğı və nəzarəti təmin etmək;

145-1.2.3. uşağın himayədar ailədə qaldığı müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) məsul sosial işçiləri tərəfindən monitorinqlərin aparılması üçün zəruri şərait yaratmaq, uşaqla bağlı hazırlanmış fərdi inkişaf planlarının uğurlu icrası üçün əməkdaşlıq etmək;

145-1.2.4. uşaqla birlikdə Azərbaycan Respublikasının hüdudlarından kənara getmək zərurəti yarandıqda (şəxsi, ailə, istirahət, müalicə, təhsil) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığını almaq;

145-1.2.5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə uşağın öz ailəsi və qohumları ilə ünsiyyətinə şərait yaratmaq;

145-1.2.6. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinəti təyinatı üzrə istifadə etmək və təsdiqedici sənədləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etmək;

145-1.2.7. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinəti təyinatı üzrə istifadə etmədikdə müavinətin məbləğini geri qaytarmaq.

**Maddə 145-2. Uşağın himayədar ailəyə verilməsinə uşaqların, valideynlərin, uşağın yerləşdiyi müəssisələrin rəhbərlərinin razılığı**

145-2.1. 7 yaşı tamam olmuş uşağın himayədar ailəyə verilməsi zamanı onun fikri pedaqoji işçinin və ya psixoloqun iştirakı ilə öyrənilir və nəzərə alınır.10 yaşı tamam olmuş uşaq himayədar ailəyə verildikdə, onun razılıq verməsi zəruridir.

145-2.2. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə yerləşdirilmiş uşağın himayədar ailəyə verilməsi zamanı onun valideynlərinin (olduğu halda) və yerləşdiyi müəssisənin razılığı tələb olunmur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2023-cü il*

# "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun tətbiqi vəAzərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 6 mart tarixli 297 nömrəli, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında"2012-ci il 8 may tarixli 626 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 68.4-1-ci maddəsində,72.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 116.1-ci, 116.2-ci, 116.4-cü, 116.5-ci (hər iki halda), 116.6-cı (hər iki halda),116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10-cu, 116-1.1-ci, 116-1.3-cü, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 119.1-ci, 138-1-ci, 142.1-ci, 142.2.3-cü, 142.3-cü, 142.4-cü (hər iki halda), 142.5-ci, 142.7-ci, 142.8-ci (hər iki halda), 142.9-cu, 142.10-cu, 142.12-142.14-cü, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7-ci, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2-ci, 143.2.5-ci, 143.3-cü, 143.4-cü, 143-1.1-ci, 143-1.2-ci, 143-1.4-cü,143-2.1-143-2.3-cü,145.10-cu, 145-1.1.3-145-1.1.5-ci, 145-1.2.1-ci, 145-1.2.3-145-1.2.6-cı maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 116.1-ci, 116.2-ci, 116.4-cü, 116.5-ci (birinci halda), 116.6-cı (ikinci halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10-cu, 116-1.1-ci, 116-1.3-cü, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin hər iki cümləsində, 119.1-ci, 138-1-ci, 142.1-ci, 142.2.3-cü, 142.3-cü, 142.4-cü (hər iki halda),142.5-ci, 142.7-ci, 142.8-ci (hər iki halda), 142.9-cu, 142.10-cu, 142.12-142.14-cü, 142-1.1-ci (hər iki halda) maddələrində,142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7-ci, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2-ci, 143.2.5-ci, 143.3-cü, 143.4-cü, 143-1.1-ci, 143-1.2-ci, 143-1.4-cü, 143-2.1-143-2.3-cü, 145.10-cu, 145-1.1.3-145-1.1.5-ci, 145-1.2.1-ci, 145-1.2.3-145-1.2.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 72.2-ci maddəsinin birinci cümləsində (birinci halda)və ikinci cümləsində, 116.5-ci(ikinci halda), 116.6-cı (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı normativ hüquqi aktları iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 142.12-ci maddəsinə uyğun olaraq, uşağın himayədar ailəyə verilməsinə dair müqavilənin formasını;

2.2. həmin Məcəllənin 142.14-cü maddəsinə uyğun olaraq, himayədar valideynlərə verilən vəsiqənin nümunəsini;

2.3. həmin Məcəllənin 142-1.8-ci maddəsinə uyğun olaraq, himayədar valideyn olmaq istəyən şəxsin ərizəsinin formasını.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 879-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

4. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3(I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393, № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818, № 12, maddə 1930; 2021, № 6 (I kitab), maddə 565; 2022, № 1, maddə 30; 2023, № 1, maddə 85, № 3, maddə 348; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2160 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "65.5," rəqəmlərindən sonra "68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində," sözləri, "115.7-ci," sözlərindən sonra "116.1, 116.2, 116.4, 116.5 (hər iki halda), 116.6 (hər iki halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10, 116-1.1, 116-1.3, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində," sözləri, "118.20," rəqəmlərindən sonra "119.1," rəqəmləri, "131.4," rəqəmlərindən sonra "138-1, 142.1, 142.2.3, 142.3, 142.4 (hər iki halda), 142.5, 142.7, 142.8 (hər iki halda), 142.9, 142.10, 142.12-142.14, 142-1.1-ci (hər iki halda) maddələrində, 142-1.3-cü maddəsinin birinci cümləsində, 142-1.7, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2, 143.2.5, 143.3, 143.4, 143-1.1, 143-1.2, 143-1.4, 143-2.1-143-2.3, 145.10, 145-1.1.3-145-1.1.5, 145-1.2.1, 145-1.2.3-145-1.2.6" sözləri əlavə edilsin;

4.2. 2.2-ci bənddən "116.2," və "142.2," rəqəmləri çıxarılsın;

4.3. 2.9-cu bənddən "49.4, 51.2,","63.3, 66.5,","69.4,", "72.2," və"114.1, 114.2, 114.3, 115.1-115.3, 116.4, 144.2, 145.2, 145.7" rəqəmləri çıxarılsın;

4.4. 2.11-ci bəndə "Məcəllənin" sözündən sonra "63.3," rəqəmləri, "65.2,"rəqəmlərindən sonra "66.5, 69.4, 114.1, 114.2, 114.3, 115.1, 115.3" rəqəmləri və "134.13," rəqəmlərindən sonra "145.7," rəqəmləri əlavə edilsin;

4.5. aşağıdakı məzmunda 2.9-1-ci, 2.9-2-ci və 2.11-1-ci bəndlər əlavə edilsin:

"2.9-1. həmin Məcəllənin 72.2-ci maddəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində, 116.5 (ikinci halda), 116.6-cı (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;

2.9-2. həmin Məcəllənin 49.4-cü və51.2-ci maddələrində müvafiq icra hakimiyyəti orqanı dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları nəzərdə tutulur;";

"2.11-1. həmin Məcəllənin 68.4-1-ci maddəsində, 72.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 116.1, 116.2, 116.4, 116.5 (birinci halda), 116.6 (ikinci halda), 116.7-ci maddələrində, 116.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 116.10, 116-1.1, 116-1.3, 116-1.4-cü maddələrində, 116-1.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 119.1, 138-1, 142.1, 142.2.3, 142.3, 142.4 (hər iki halda), 142.5, 142.7, 142.8 (hər iki halda), 142.9, 142.10, 142.12-142.14, 142-1.1 (hər iki halda), 142-1.3, 142-1.7, 142-1.7.11-ci maddələrində, 142-1.8-ci maddəsinin birinci və ikinci cümlələrində, 143.2, 143.2.5, 143.3, 143.4, 143-1.1, 143-1.2, 143-1.4, 143-2.1-143-2.3, 145.10, 145-1.1.3-145-1.1.5, 145-1.2.1, 145-1.2.3-145-1.2.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;".

5. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419; 2019, № 5, maddə 847, № 12, maddə 1936; 2020, № 7, maddə 895, № 8, maddə 1036; 2021, № 6 (I kitab), maddə 566, № 8, maddə 922; 2022, № 6, maddə 599; 2023, № 3, maddə 351) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.5.11-ci yarımbəndə "vahid" sözündən əvvəl ", habelə himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) və himayədar ailəyə verilmiş uşaqların" sözləri əlavə edilsin;

5.2. 2.5.16-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.5.17-2.5.21-ci yarımbəndlər əlavə edilsin:

"2.5.17. himayədar ailə sahəsində tənzimləmənin və dövlət nəzarətinin həyata keçirilməsini təmin edir;

2.5.18. himayədar ailəyə verilmiş uşaqlar üzərində qəyyumluq (himayəçilik) orqanının funksiyalarını həyata keçirir;

2.5.19. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi və həmin müəssisələri tərk etməsi ilə bağlı qərar qəbul edir;

2.5.20. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdən öz ailələrinə qaytarılması və ya himayədar ailəyə verilməsi ilə bağlı tədbirlər görür;

2.5.21. valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə düşməsinin qarşısının alınması istiqamətində tədbirlər görülməsini, habelə həmin müəssisələrdə olan uşaqlarla bağlı fərdi inkişaf planlarının hazırlanmasını təmin edir.";

5.3. 2.8.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.8.3. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, vahid uçota alınmış valideyn himayəsindən məhrum olan uşaqların yerləşdirilməsinə yardım edir;";

5.4. 2.8.7-ci yarımbənd ləğv edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7,№ 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, №8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29,№ 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874, № 10, maddə 1142, № 12, maddələr 1411, 1428, 1441; 2023, № 4, maddə 480) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.6.15-ci yarımbəndi ləğv edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544; 2019, № 7, maddələr 1213, 1233, № 12, maddə 1935; 2020, № 8, maddə 1039; 2021, № 5, maddə 435, № 6 (I kitab), maddələr 579, 583, № 8, maddə 922, № 9, maddələr 983, 987, № 11, maddə 1212, № 12, maddə 1403; 2022, № 12, maddə 1448; 2023, № 2, maddə 219) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 5.2.1-ci yarımbəndə aşağıdakı məzmunda 6-cı abzas əlavə edilsin:

"6. himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün müavinət";

7.2. 5.2.2-ci yarımbəndə aşağıdakı məzmunda 4-2-ci abzas əlavə edilsin:

"4-2. himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət";

7.3. aşağıdakı məzmunda 9-2-ci və 9-3-cü hissələr əlavə edilsin:

**"9-2. Himayədar ailə sahəsində göstərilən xidmətlər**

9-2.1. himayədar ailə ilə bağlı müraciətlərin qəbul edilməsi

9-2.2. himayədar ailə ilə bağlı məsləhət və məlumat verilməsi

**9-3. Valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi, onların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrə yerləşdirilməsi və həmin müəssisələrdən götürülməsi ilə bağlı müraciətlərin qəbul edilməsi".**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

# Azərbaycan ilə Ermənistan arasında delimitasiya üzrə komissiyaların dördüncü görüşü keçirilib

İyulun 12-də Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhəddə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının, Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın dördüncü görüşü keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycanın və Ermənistanın rəhbərləri səviyyəsində müxtəlif formatlarda əldə edilən razılaşmaları nəzərə alaraq, delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Tərəflər həmçinin komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Nazirlər Kabinetində boyukqayidish.gov.az portalının icmal təqdimatı keçirilib



İyulun 12-də Nazirlər Kabinetində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ilə bağlı iclas keçirilib. Dövlət proqramında nəzərdə tutulmuş işlər üzrə əsas icraçı orqanların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxslərin iştirak etdiyi iclasda proqramın icra vəziyyətinə nəzər yetirilib, boyukqayidish.gov.az portalının icmal təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iclasda çıxış edərək Vətən müharibəsində qazanılan Şanlı Qələbə nəticəsində azad olunan torpaqlarımızda irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını vurğuladı. R.Məmmədov qeyd etdi ki, işğaldan azad olunmuş ərazilərin postmüharibə dövründə minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb və görülür. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi fəallığının təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə qəbul olunan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı üzrə görülən və bundan sonra görüləcək işlər barədə məlumat verən Aparat rəhbəri bildirdi ki, bu sərəncamla Nazirlər Kabinetinə dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarətin və hesabatlılığın həyata keçirilməsi, eləcə də nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Prezidentinə məlumat verilməsi tapşırılıb. Həmçinin sərəncamda proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin və qiymətləndirilməsinin Nazirlər Kabinetinin sifarişinə əsasən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən həyata keçirilməsi qeyd olunub. Proqramın icrası üçün Nazirlər Kabinetinin 2022-ci il 30 dekabr tarixli Sərəncamı qəbul edilib. Proqram çərçivəsində işlərin gedişinə nəzarətin səmərəli təmin olunması məqsədilə İİTKM-yə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı"nın formalaşdırılması tapşırılıb.

Sonra İİTKM-in icraçı direktoru Vüsal Qasımlı boyukqayidish.gov.az portalının təqdimatını etdi. Bildirdi ki, dövlət proqramında 6 prioritet üzrə 25 fəaliyyət istiqaməti müəyyən edilib və 188 tədbirin icrası nəzərdə tutulur. İİTKM-də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın monitorinq və qiymətləndirilməsinin aparılmasının təmin edilməsi məqsədi ilə "Metodoloji çərçivə" hazırlanıb.

"İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramının icrasına nəzarət və hesabatlılıq Portalı"nın işləmə mexanizmlərinin izahı və tətbiqinə dair təlimlər keçirilib və videotəlimat hazırlanıb. Hibrid formatda keçirilən təlimlərdə dövlət proqramının icrasında iştirak edən 44 dövlət qurumunun 200-ə yaxın səlahiyyətli nümayəndəsinə sözügedən portaldan istifadə qaydaları, şərtləri və bölmələri haqqında ətraflı məlumat verilib. Aidiyyəti qurumlar tərəfindən müvafiq məlumatlar portalda yerləşdirilir. Bu məlumatlar əsasında İİTKM tərəfindən monitorinq və qiymətləndirmələr aparılaraq nəticələri Nazirlər Kabinetinə təqdim ediləcək.

Daha sonra iclasda dövlət proqramında nəzərdə tutulmuş tədbirlər üzrə görülən işlərin həyata keçirilməsində səmərəliliyin yüksəldilməsi və digər məsələlər müzakirə olunub.

# Müdafiə Nazirliyinin şəxsi heyəti Tovuz döyüşlərinin ildönümü ilə əlaqədar İkinci Şəhidlər xiyabanını ziyarət edib

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin şəxsi heyəti Tovuz döyüşlərinin üçüncü ildönümü ilə əlaqədar İkinci Şəhidlər xiyabanını ziyarət edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz döyüşləri zamanı şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli qəhrəmanları general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, o cümlədən respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının məzarları üzərinə gül dəstələri düzülüb, xatirələri ehtiramla yad edilib.

Şəhidlərin xatirəsinə birdəqiqəlik sükut elan edildikdən sonra hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub. Tədbirdə şəhidlərin ölməzliyindən danışılıb və onların xatirələrinin bundan sonra da əziz tutulacağı əminliklə qeyd edilib.

Sonda Müdafiə Nazirliyinin idarə rəisləri şəhid ailələri ilə görüşərək onların qayğıları ilə maraqlanıblar. Ailələr isə öz növbələrində göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# QMİ sədri Ümumdünya Kilsələr Şurasına etiraz məktubu ünvanlayıb

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurası (ÜKŞ) Mərkəzi Komitəsinin növbəti iclasının yekun sənədində birtərəfli xarakter daşıyan və erməni tərəfinin mənafelərinə xidmət edən bənd qəbul edilməsi ilə əlaqədar Şuraya etiraz məktubu ünvanlayıb.



AZƏRTAC məktubu təqdim edir:

"O bir olan Uca Yaradanın adı ilə!

Təəssüflə qeyd etməliyik ki, 2022-ci ilin 31 avqust - 8 sentyabr tarixlərində Ümumdünya Kilsələr Şurasının 11-ci Asambleyasında olduğu kimi, ÜKŞ yenidən Mərkəzi Komitənin növbəti iclasının yekun sənədində birtərəfli xarakter daşıyan və erməni tərəfinin mənafelərinə xidmət edən bənd qəbul etmişdir. Biz yaxşı bilirik ki, bu kimi anti-Azərbaycan mahiyyətli sənədlər Eçmiədzin və Kilikiya erməni kilsələrinin sizə etdiyi müraciətlər və obyektiv olmayan, həqiqətdən uzaq məlumatlara əsasən qəbul edilir. Belə qənaətə gəlmək olar ki, 1993-cü ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə töhfə verən və münaqişənin dini mahiyyət kəsb etməməsi haqqında ovaxtkı mövqeyindən fərqli olaraq, ÜKŞ hazırda birtərəfli və qərəzli şəkildə erməni təəssübkeşliyi mövqeyindən çıxış edir. Eyni zamanda ÜKŞ son dövrlərdə dünyada cərəyan edən siyasi prosesləri dini müstəviyə çıxarmaqla öz nüfuzuna xələl gətirir. Düşünürük ki, müasir dünyada baş verən zorakılıq, nifrətə çağırış, dini və irqi zəmində ayrı-seçkilik hallarının, dini atributların həqarət olunması kimi vandalizm aktlarının artdığı bir dövrdə kilsə adını daşıyan təşkilat bu kimi təhlükəli tendensiyalara daha çox diqqət ayırmalı, birtərəfli siyasi bəyanatlarla deyil, barışdırıcı, sülhü təmin edə bilən və birgəyaşayışı təbliğ edən çağırışlarla çıxış etməlidir.

Beynəlxalq aləmə yaxşı məlumdur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Ermənistanın əsassız ərazi iddiaları əsasında başlamış və dünya birliyi tərəfindən tanınmış ərazilərimizin 20 faizi 30 ilə yaxın müddətdə işğal altında qalmışdır. Qonşu ölkənin təcavüzü, Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün məşəqqətini yaşamışdır. Azərbaycan xalqı və müzəffər Ordusu 2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq hüququn normalarına, BMT Nizamnaməsinə və onun məlum qətnamələrinə əsasən öz əzəli torpaqlarını işğaldan azad etdi. Yalnız bundan sonra bütün dünya ermənilər tərəfindən Qarabağda on illər boyu törədilən dəhşətli vandalizm əməllərinin ağlasığmaz miqyasının şahidi oldu. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində rəsmi qeydiyyatda olan 67 məsciddən 65-i dağıdılmış, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar talan edilmiş, 2 məscid tövləyə çevrilmiş, orada islam dinində haram sayılan heyvanlar saxlanılaraq bütün islam dünyasına həqarət olunmuşdur. Azərbaycanın bir vaxtlar inkişaf etmiş inzibati mərkəzləri, şəhər və qəsəbələri, kəndləri inanılmaz bir qəddarlıqla tamamilə dağıdılmış, işğal edilmiş ərazilərimizdə "yandırılmış torpaq" siyasəti həyata keçirilmişdir. Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsindən sonra bölgəyə səfər edən çoxsaylı xarici müşahidəçilər bu ürəkdağlayan mənzərədən heyrətə gələrək gördükləri yerləri "ruhlar şəhəri" və "Azərbaycanın Xirosiması" adlandırmışlar.

On illər boyu Ermənistanın hazırkı ərazisindəki Azərbaycana məxsus tarixi-mədəni və dini abidələr, o cümlədən İrəvanda "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" və digər qədim məscidlərimiz tamamilə dağıdılmış, yeganə salamat qalan Göy məscidin isə orada guya "baş verən" yanğından sonra memarlıq xüsusiyyətləri dəyişdirilmişdir. Ermənistanda və Azərbaycanın tarixi ərazisi olan Qarabağda müsəlman məscidlərinin dağıdılması ilə kifayətlənməyən erməni işğalçıları Şuşadakı "Vəftizçi Yəhya" pravoslav kilsəsini, digər bölgələrdəki qədim Qafqaz Albaniyasına məxsus kilsələri saxtalaşdıraraq qriqorianlaşdırmış, Xocavənd pravoslav kilsəsini isə tamamilə məhv etmişdir. Halbuki Ermənistandan fərqli olaraq Azərbaycanda, onun paytaxtı Bakıda və digər bölgələrdə müxtəlif millətlərin və dinlərin nümayəndələri, o cümlədən minlərlə erməniəsilli vətəndaşlar sülh və əmin-amanlıq şəraitində yaşayır, Bakının mərkəzində erməni kilsəsi və onun kitabxanası lazımi şəraitdə saxlanılır və dövlət tərəfindən qorunur.

Xüsusilə nəzərinizə çatdırmaq istəyirəm ki, Azərbaycanın 86,6 min kvadratkilometr təşkil edən ərazisində "Artsax" adlı inzibati vahid yoxdur və bunu dünya birliyi ilə yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyan da rəsmən etiraf etmişdir. Azərbaycanın suveren ərazisi olan Laçın-Xankəndi yolunda cari ilin əvvəllərində ölkəmizin təbii sərvətlərinin talan edilməsinə, ekologiyasının çirkləndirilməsinə, işğaldan azad olunmuş ərazilərimizə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-ci ilin 10 noyabr tarixli Bəyanatından sonra - 2021-ci ildə Ermənistanda istehsal olunmuş minaların və hərbi sursatın daşınması faktlarına qarşı ekofəalların dinc xarakterli haqlı etiraz mitinqləri olmuşdur. Həmin dövrdə və bu gün də humanitar məqsədli gediş-gəlişə və mülki malların daşınmasına heç bir məhdudiyyət yoxdur. Birmənalı şəkildə bildiririk ki, erməni kilsəsi və onun havadarları tərəfindən yayılan və həqiqətə uyğun olmayan məlumatlar, Qarabağda guya humanitar böhranın və "etnik təmizləmə siyasəti"nin yaşandığı barədə iddialar böhtan xarakteri daşıyır və qanunsuz erməni hərbi qruplaşmalarının Azərbaycanın ərazisində təxribatçı terror fəaliyyətlərini ört-basdır etməyə hesablanmışdır. İşğaldan azad olunmuş ərazilərimizdə yüzlərlə dinc sakinimiz bu gün də ermənilər tərəfindən qoyulmuş minalara düşərək öz həyatını itirir, əlil olur, erməni kilsəsi isə dini kürsüdən istifadə edərək yenidən müharibə ritorikası ilə çıxışlar edir və revanşizmi dəstəkləyir.

Bu məktubumuzla rəhbərlik etdiyiniz təşkilatı həqiqəti müdafiə etməyə və obyektiv bəyanatlar verməyə, kövrək sülh şəraitində birtərəfli mövqe tutmamağa, ədalətin yanında olmağa, erməni tərəfinin qızışdırıcı fəaliyyətinə dəstək verməməyə çağırırıq. Çünki Vahid Yaradana və Haqqa xidmət edən din xadimləri, dini təşkilatlar, xüsusilə dini liderlər münaqişəyə və qarşıdurmaya deyil, humanizm ideyalarına, sülhə, birgəyaşayışa və qarşılıqlı anlaşmaya töhfə verməlidirlər. İncildə İsa əleyhisalamın da buyurduğu kimi: "Sülhpərvərlərə nə bəxtiyardırlar! Çünki onlara Allahın oğulları deyiləcək" (Matta, 5:9)".

# TBMM Sədri Numan Kurtulmuşun başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabanı, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət edib







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iyulun 12-də nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Sonra Ulu Öndərin ömürgün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Nümayəndə heyəti Şəhidlər xiyabanını da ziyarət edərək ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb.

Ziyarət zamanı həmçinin "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət edib. Abidənin önünə gül dəstələri qoyulub. TBMM Sədri Numan Kurtulmuş burada Xatirə dəftərini imzalayıb.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# TBMM-in Sədri TÜRKPA Katibliyi ilə tanış olub

Azərbaycanda rəsmi səfərdə olan TÜRKPA-nın fəaliyyətdə olan sədri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş iyulun 12-də TÜRKPA Katibliyinin inzibati binasına gəlib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, TBMM-in Sədrini TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er qarşılayıb və onlar birlikdə inzibati binanın həyətində ağac əkiblər.

Sonra TBMM-in Sədri və onun rəhbərlik etdiyi Türkiyə parlament nümayəndə heyəti TÜRKPA Katibliyinin inzibati binası, burada yaradılan iş şəraiti ilə tanış olublar. Numan Kurtulmuş katibliyin fəaliyyəti ilə maraqlanıb və katiblik əməkdaşlarına öz tövsiyələrini bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

*"Azərbaycan"*



# Numan KURTULMUŞ: "Azərbaycan Cənubi Qafqazda ən önəmli müttəfiqimizdir"

"Azərbaycan qardaş ölkədir və Cənubi Qafqazda ən önəmli müttəfiqimizdir". AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş deyib.

"Türkiyənin həm Şimali Kiprlə, həm də Azərbaycanla olan münasibəti bizim üçün olduqca əhəmiyyətlidir", - deyə TBMM Sədri vurğulayıb.

❖ ❖ ❖

Numan Kurtulmuş onu da söyləyib ki, Türkiyə, Azərbaycan və Şimali Kipr "bir millət, üç dövlət" anlayışı ilə hərəkət edən yaxın ölkələrdir. Ümid edirik ki, bu səfərimiz Türkiyənin Azərbaycan və türk dünyası əlaqələrinə töhfə verəcək.

Türkiyənin son dərəcə güclü bir ölkə kimi dost və qardaş dövlətlərlə birgə daha da inkişaf edəcəyini bildirən TBMM Sədri deyib: "Bizim Azərbaycana səfərimizin başqa bir mənası var. Bu, türk dövlətləri ilə münasibətlərimizin inkişaf etdirilməsinə daha bir mesajdır. Məqsədimiz gələcəkdə türk dünyasının dünya siyasətində çox güclü iştirakını təmin etmək, bunun üçün bütün sahələrdə əməkdaşlığımızı mükəmməl səviyyəyə çıxara bilməkdir".



# Prezident qətiyyəti

## İlham Əliyev xalqın maraqlarını təmin edən siyasətin hər zaman prioritet olduğunu bir daha təsdiqlədi

*Əvvəli 1-ci səh.*

İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra regionda yaranmış yeni reallıqlara uyğun siyasət yürüdən İlham Əliyevin əsas hədəfi bölgədə uzunmüddətli sabitliyin təmin edilməsidir. Əlbəttə ki, tərəflər arasında imzalanacaq sülh müqaviləsi təhlükəsizliyin qarantı hesab olunur. Ona görə də Azərbaycanın ortaya qoyduğu mövqe beynəlxalq birliklər, böyük dövlətlər tərəfindən də təqdir edilir.

Sülh müqaviləsi ilə bağlı aparılan danışıqlara toxunan dövlət başçısı bir daha bəyan etdi ki, Azərbaycanın sülh danışıqları ilə bağlı mövqeyi aydındır, məntiqlidir və beynəlxalq hüquqa əsaslanır. Yalnız bu prinsiplər, beynəlxalq hüququn normaları əsasında sülh müqaviləsi imzalana bilər.

İlham Əliyev həmçinin bu ay keçiriləcək yüksəksəviyyəli təmasların əhəmiyyətini də dəyərləndirdi: "Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksəksəviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir".

Prezident müxtəlif bəhanələrlə sülh müqaviləsini imzalamaqdan boyun qaçıran məğlub Ermənistanın da mövqeyində dəyişikliyin olduğunu söyləyərək vurğuladı ki, son müsbət məqamlardan biri də Hayastan tərəfinin mövqeyində müsbətə doğru hərəkətin olmasıdır. Əgər Ermənistan rəhbərliyi keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq ölkəmizin ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb. Bu, müsbət hal kimi qiymətləndirilməlidir.

Prezidentin də söylədiyi kimi, indi sıra eyni sözlərin kağız üzərində də öz təsdiqini tapmasına, imzaların atılmasına və münasibətlərin yaradılmasına çatıb. Hər halda Azərbaycan bu istiqamətdə səylərini davam etdirəcək. Sülh müqaviləsinin imzalanması təkcə Azərbaycan üçün deyil, Ermənistan üçün də olduqca vacibdir. İllərdir regionda reallaşdırılan qlobal miqyaslı layihələrdən kənarda qalan Ermənistan sülh müqaviləsini imzalamaqla yeni inkişaf mərhələsinə keçid edə bilər.

### Xarici investor təbiətimizi zəhərlədiyi üçün insanlar haqlı olaraq etiraz səsini ucaldıblar

Dövlət başçısı müşavirədə Gədəbəy rayonunda baş vermiş hadisəyə də münasibət bildirərək hər zamankı kimi qətiyyətli mövqeyini nümayiş etdirdi. Bəllidir ki, İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində hər zaman xalqın maraqları dayanıb. Xalqı narahat edən bütün məsələlər daim Prezidentin diqqət mərkəzində olub və lazım gəldikdə vətəndaşlarla birbaşa ünsiyyətdə olaraq problemlərin yerindəcə həll olunması tapşırığını verib.

Gədəbəy rayonunda baş vermiş hadisənin tamamilə qəbuledilməz olduğunu bəyan edən İlham Əliyev hesab edir ki, bu məsələdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar.

Amma bununla yanaşı, bəzi təxribatçı qüvvələr vətəndaşların bir hissəsini yoldan çıxararaq onları qanunsuz hərəkətlər etməyə sövq ediblər. Bununla da xoşagəlməz hallar yaşanıb. Prezident deyir ki, vətəndaşların bir hissəsi təxribatçıların fitnəsinə uyaraq ədəbsiz, qanunsuz hərəkətlər ediblər və bu da dözülməzdir, qəbuledilməzdir. Həmin təxribatçıların bəziləri Azərbaycanda, bəziləri xaricdə gizlənir. Azərbaycandakılar artıq müəyyən edilib və bir neçəsi məsuliyyətə cəlb olunub. Xaricdəkilər də tezliklə məsuliyyətə cəlb ediləcək: "Heç kim, necə deyərlər, fikirləşməsin ki, biz bunu unutmuşuq. Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımlar 1993-cü ildə başa çatıb. Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar".

Dövlət başçısı ölkəmizdə hər zaman asayişin keşiyində dayanan, qanunsuz hərəkətlərin qarşısını alan, vətəndaşın hüquqlarının təmin olunmasında vəzifəsini yerinə yetirən Azərbaycan polisinin hadisə zamanı nümayiş etdirdiyi mövqeyini də qiymətləndirdi: "Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur. Bizim Daxili Qoşunlarımız Qarabağda müharibə zamanı şəhid verib. İndi kimsə gəlsin, polisə ləkə vursun. Mən buna imkan verməyəcəyəm və hər kəs bunu bilsin - təxribatçılar, o təxribatlara uyanlar və bütün ictimaiyyət".

Qeyd edək ki, bəzi vətəndaşlar təxribatçıların əməllərinə uyaraq polisi daşa basıb və onların ünvanına xoşagəlməz ifadələr işlədiblər. Prezident də deyir ki, insanlar Azərbaycan polisinə daş atmamalıdır, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Digər tərəfdən bu, həm də cinayət faktıdır: "Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar".

### Prezident bir həftə vaxt verdi

Bu hadisənin səbəblərini də izah edən dövlət başçısı bildirdi ki, ölkəmizdə xarici şirkətlər üçün hər zaman əlverişli biznes mühiti yaradılıb, böyük güzəştlər edilib. Azərbaycan xarici şirkətlərə hər zaman investisiya yatırmaları üçün çox əlverişli məkan kimi tanınıb. Lakin bu, o demək deyil ki, hər hansısa şirkət öz işinin xeyrinə təbiətimizə ziyan vura və ya insanların örüş, otlaq sahələrini zəbt edə bilər.

Görünən odur ki, Gədəbəydə fəaliyyət göstərən həmin şirkət Prezidentin də söylədiyi kimi ya Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sövdələşib, ya da onu özbaşına edib. Buna görə də bu məsələ ciddi araşdırılmalıdır.

Dövlət başçısı bəyan etdi ki, bununla bağlı prokurorluğa, digər aidiyyəti qurumlara bütün göstərişlər verilib.

İlham Əliyev bir daha ciddi xəbərdarlıq edərək aidiyyəti qurumlara bir həftə vaxt verdi. Bu müddət ərzində həm Prezidentə, həm də ictimaiyyətə məlumat verilməli, məsələ araşdırılmalıdır. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır.

Ümumiyyətlə isə, ölkəmizdə işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Əgər hörmət etməyəcəklərsə, onların fəaliyyəti mümkünsüz olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan polisi ictimai təhlükəsizliyin təminatçısıdır

*Əvvəli 1-ci səh.*

Ölkə rəhbərinin çıxışının mühüm hissəsi Gədəbəyin Söyüdlü kəndində bir ay əvvəl baş vermiş hadisə ilə bağlı oldu. Prezident təbiətə vurulmuş ekoloji ziyan, aidiyyəti dövlət qurumlarının fəaliyyətsizliyinə, keçirilən etiraz aksiyasına və onun müxtəlif məqamlarına geniş şəkildə münasibət bildirərək qəti tapşırıqlar verdi.

Zahid Oruc dedi ki, ali səviyyədə məhz birinci şəxsin dilindən verilən rəy cəmiyyətdə konsensus yaradıb: "Çünki yalnız bir parametr üzərində məsələyə baxılmadı. Burada hansısa xarici şirkətin maraqlarını əldə əsas götürən mövqelərə yuvarlansaydıq, aylar əvvəl Laçın-Xankəndi yolunda ərazilərimizi istismar edən, təbiətə, cəmiyyətə böyük zərbə vuran qüvvələrə qarşı həyata keçirdiyimiz tədbirlərin məramı, arqument bazası zəifləmiş olardı. Ölkə rəhbərinin masası üzərinə qoyulmuş bütün informasiyalar onu deməyə əsas verir ki, Prezident həm ölkə daxilində, həm də xaricində baş verən əksər proseslərin milli mənafelər kontekstində dəyərləndirilməsinə qadir məlumatlara sahibdir. Bu, çox önəmli məsələdir. Verilən reaksiyalar bütün prosesin önəmli məqamlarını özündə ifadə edirdi. Ona görə də sadə vətəndaşların, qanunu pozmayan, dövlətə, hakimiyyət orqanlarına qarşı hörmətsizlik göstərməyən, amma təbiətinə və cəmiyyətinə qarşı olan hər hansı ziyanları vətəndaş hüquqları ilə dilə gətirənlərin mövqeyi müdafiə olundu. Bu, xalqla dövlət arasındakı birlikdir".

Komitə sədrinin sözlərinə görə, məsələyə ətraflı yanaşıldığı üçün yerli hakimiyyət orqanlarının, həmçinin polislərin davranışları, onların üzərindən xarici dairələrin bu məsələ ətrafında apardıqları fəaliyyətlər, daxili işlər orqanları ilə bəzi ölkələrdə ictimai sabitliyin, asayişin qorunması yönündə fəaliyyət aparan qüvvələrin davranışları ilə müqayisələr aparılmasının şahidi olduq. Eləcə də məsələ ətrafında hökumətin, o cümlədən məsul qurumların fəaliyyətinin qiymətləndirilməsi də ölkə rəhbərinin açıqlamalarının nüvə mərkəzini təşkil edirdi.

Prezident regional və beynəlxalq siyasətdə fəal diplomatik, informativ, siyasi mübarizəni necə peşəkarlıqla aparırsa, daxildə də əsas söz sahibi olduğunu və sabitliyin, əmin-amanlığın, hətta hər hansı nöqtədə lokal insidentlərin də aradan qaldırılmasında müstəsna iradəyə, obyektiv, ədalətli mövqeyə malik olduğunu nümayiş etdirdi: "Söyüdlü timsalında cəmiyyətdə sorğu aparsaq, şahidi olarıq ki, həqiqətən də ölkə rəhbərinin verdiyi mesajlar insanlarda rahatlıq, güvən yaradır, daxili əminliyi artırır. Polis orqanlarının fəaliyyətinin ölkə rəhbəri tərəfindən qiymətləndirilməsinə gəlincə, məsələdə iki prizmanı seçməliyik. Birincisi, digər hakimiyyət institutları daha aktiv fəaliyyət aparsaydı, bir xarici şirkət ölkənin ucqar dağ bölgəsində özünü bu qədər sərbəst, təbiətimiz, cəmiyyətimiz üzərində hökmran hiss etməzdi. İkincisi, Azərbaycan polisinin davranışı ilə Fransa və ya digər ölkələrdə hazırda yaşanan böyük vətəndaş toqquşmaları, hakimiyyət orqanları ilə barışmaz üsyan, iğtişaşlar fonunda müqayisə aparmaq imkanı var. Görürük ki, rezin güllələrin və ya dəyənəklərin, su şırnaqlarının yeni növləri yaranıb. Bütün bunlar Strasburqun və ya Brüsselin titullu salonlarının, binalarının dünyanı yönləndirən əsas mərkəzlərin bir addımlığında baş verir", - deyə komitə sədri əlavə edib.

Zahid Oruc dedi ki, Söyüdlüdə polislər ilk növbədə həmin şirkətlə vətəndaşlar arasında daha ağır qarşıdurmanı cilovlamağa çalışıb. Hansısa birinin əməlini qabardıb bütövlükdə polis və hüquq-mühafizə orqanlarına qarşı nifrət, qisasçılıq, polis şiddəti və s. kimi adlarla cəmiyyətdə dövlətin qoruyucu, asayişin keşikçisi olan polisi gözdən salmaq aksiyası heç bir halda milli mənafelərə bağlı mövqe sayıla bilməzdi.

Komitə sədri bildirdi ki, Prezident İlham Əliyev polisi qorudu. Daxili işlər orqanları, onların timsalında asayişi, əmin-amanlığı bir daha müdafiə etdi. Cənab Prezident 2003-cü ildə Azərbaycan vətəndaşlarını meydanlara çəkən və ölkəmizi 1990-cı illərə qaytarıb çadırlar məmləkətinə döndərməyə cəhd edən qüvvələrə də o zaman demişdi ki, polislər qəti şəkildə cəzalandırılmayacaqlar: "İndiki situasiyada polislər ilk növbədə ikinci göl layihəsini cızan şəxslərlə etirazçılar arasında qoruyucu zireh kimi ortada dayanmışdılar. Buna görə onların üzərinə daş atılmamalı idi".

Komitə sədri deyir ki, ölkə rəhbərinin bu məsələyə reaksiyası təkcə Gədəbəy və ya lokal ərazi üçün deyil, bütünlükdə ölkəmiz üçün çox gərəklidir: "Azərbaycan polisi, sözün həqiqi mənasında, dövlətçilik mənafelərini çox yüksək tutur. Bunu həm də şəhid olmaqla sübut ediblər. Bəzən hansısa siyasi qurumlar, üçüncü sektor







bəzi məsələlərdə ləng ola bilir, amma polis orqanları hər yerdə dövlətin milli mənafelərini qoruyur. Onlar fədakardırlar, bəzən 24 saat ağır iş rejimində çalışırlar. Söyüdlü məsələsi ətrafında səlib yürüşü, informasiya kampaniyası aparanlar var. Bu, düzgün addım deyil. Prezident dövlətin dayağı kimi polisə öz münasibətini ifadə edərkən obyektiv, hadisəyə ədalətli qiymət verən lider kimi o insanların, doğrudan da, komandanı olduğunu sübut edir".

### Azərbaycan polisi hər zaman xalqın yanındadır

Milli Məclisin deputatı Arzu Nağıyev bildirib ki, Prezident İlham Əliyev 6 ayın sosial-iqtisadi yekunları ilə bağlı keçirdiyi müşavirədə Azərbaycan polisi haqqında yüksək fikirlər söylədi.

Azərbaycan polisi ölkəmizdə asayişin qorunmasıyla yanaşı, dövlətimizə qarşı olan təhdidlərin qarşısının alınmasında iştirak edir, həm keşiyimizdə durur, həm də sərhədlərdə öz vəzifəsini yerinə yetirir. Bir sözlə, Azərbaycan polisi xalqın rəğbətini qazanmış hüquq-mühafizə orqanlarından biridir.

Deputat bildirib ki, Azərbaycan polisi müstəqillik illərində böyük şərəfli yol keçib: "Polis orqanlarında xidmət edən hər bir şəxs bilir ki, onun əsas vəzifəsi xalqının rifahı, təhlükəsizliyi və dövlətin müstəqiliyi üçün atdığı addımlardır. Bu, onların bir nömrəli işidir. Məhz buna görə də onlara qarşı təxribatlar və ya onlar haqqında xoşagəlməz məsələləri qabartmaq heç də düzgün hal deyil".

A.Nağıyevin qənaətincə, bu kimi hallar onları gözdən salmaq üçün atılan addımlardır. Təbii ki, burada marağı olan xarici xüsusi xidmət orqanları və ölkə daxilində müxtəlif xarici qurumlara qulluq edən şəxslər də var. Azərbaycan polisi bütün bunları gözəl başa düşür. Müxtəlif qurumlar istər Dövlət Yol Polisi, istər mühafizədə, istərsə də cinayətkarlara qarşı işləyənlər birmənalı şəkildə Azərbaycanın rifahı naminə çalışır. Mütəşəkkil cinayətkarlığa qarşı, narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən şəxslərə qarşı mübarizə, görülən tədbirlər göz qabağındadır. "Bir sözlə, Azərbaycan polisi dövlətin hüquq-mühafizə orqanlarının içində öndə gedənlərdəndir. Öz işini koordinasiyalı şəkildə Ali Baş Komandanın göstərişi ilə həyata keçirir. Xaricdə - istər Fransa, istər ABŞ, istərsə də qonşu ölkələrdə baş verən hadisələrdə polisin necə davrandığını görürük. Azərbaycanda polisin həyata keçirdiyi əməliyyatlar isə təqdirəlayiqdir. Bunlar Azərbaycan xalqının rifahı üçün atılan addımlardır. Polis orqanlarında, rəhbərliyində peşəkarlar fəaliyyət göstərir. Azərbaycan polisi bu gün xalqın yanında olan, xalqın inandığı ən etibarlı qurumlardan biridir", - deyə deputat əlavə edib.

### Xalq da, polis də İlham Əliyevin ətrafında sıx birləşib

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısının nitqi müvafiq dövr ərzində sosial-iqtisadi göstəricilərin təhlili ilə yanaşı, həm də daxili və beynəlxalq münasibətlərə dair məsələlərlə bağlı situasiyanın dəyərləndirilməsi, artan hərbi güc və imkanlarımızın inikası baxımından mühüm hadisə hesab edilməlidir.

Deputat qeyd edib ki, Prezidentin də ifadə etdiyi kimi, Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi və hərbi potensialımızın güclənməsi əsas prioritetlər olaraq qalır və son 6 ayda bu istiqamətlərdə ciddi irəliləyişlər var.

Hərbi potensialımızdan söz açan Bəhruz Məhərrəmov vurğulayıb ki, dövlət başçısı açıq formada bir daha bəyan etdi ki, ilk növbədə özümüzü, müstəqilliyimizi, seçimimizi, həyat tərzimizi, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. Bu mənada Müzəffər Ali Baş Komandan Azərbaycan Silahlı Qüvvələrini həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da gücləndirməkdə qərarlıdır. Azərbaycan Prezidentinin də ifadə etdiyi kimi, biz yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edəcək gücə çevrilmişik.

Prezident İlham Əliyevin çıxışında diqqətçəkən məqamlardan birinin Gədəbəy hadisələri fonunda verdiyi açıqlama olduğunu deyən deputat qeyd edib ki, ilk növbədə dövlət başçısı milli mənafelərin, xalqın və dövlətin maraqlarının onun üçün istisnasız prioritet olduğunu göstərdi: "Tələb çox sadədir, dövlət strukturları vətəndaşla kommunikasiyasını doğru qurmağı bacarmalıdır. Sirr deyil ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva vətəndaşla bu kommunikasiyanı qura bilib. Lakin proseslər göstərir ki, bəzi strukturlarda bu sistem hələ də yetərli səviyyədə qurulmayıb və proseslərə cənab İlham Əliyev şəxsən özü müdaxilə etməli olur".

Bəhruz Məhərrəmov bildirib ki, dövlət başçısının ekoloji problemlərə, xüsusən əhalinin sağlamlığı məsələsinə xüsusilə həssas olduğu və bu diqqəti eyni zamanda aidiyyəti strukturlardan tələb etdiyi bir daha aydın oldu. Ən nəhayət, cənab İlham Əliyev dövlətin dayaqlarını hədəfə almaq üçün fürsət güdən, təxribata meyil edən kəsimə yerini göstərdi. Cənab Prezidentin də ifadə etdiyi kimi, əgər Azərbaycan polisi dözümlülük göstərirsə, bu, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil.

Deputat qeyd edib ki, bu çıxış vətəndaşı narahat edən istənilən köklü problemin cənab İlham Əliyevi də narahat etdiyini bir daha göstərdi. "Kiminsə özünü daha "çox xalqyanlı" göstərmək niyyətinə, problemlərdən sui-istifadə edərək iyrənc məqsədinə çatmasına yol verilməyəcək. Azərbaycan xalqı da, polisi də cənab İlham Əliyevin ətrafında sıx birləşərək bu kimi naqisliklərin, təxribatların qarşısında bir yumruq kimi vahid mövqedən çıxış edir", - deyə Bəhruz Məhərrəmov əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın Beynəlxalq Maliyyə Korporasiyası ilə əlaqələrinin inkişafı müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Avropa regionu üzrə dövlət-özəl tərəfdaşlığı proqramlarının rəhbəri Mehita Fanni ilə görüşü olub.



AZƏRTAC xəbər verir ki, görüşdə əməkdaşlığın prioritet istiqamətləri və perspektiv layihələr barədə müzakirə aparılıb, ölkəmizin IFC ilə əlaqələrin genişləndirilməsinə önəm verdiyi vurğulanıb. Həmçinin təşkilatın biznes mühitinin təkmilləşdirilməsi, dövlət-özəl sektor tərəfdaşlığının inkişaf etdirilməsi kimi istiqamətlər üzrə ölkəmizdə reallaşdırılan layihələrə dəstəyinin əhəmiyyəti qeyd olunub.

Görüşdə Azərbaycanın sosial-iqtisadi hədəfləri, o cümlədən dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafı yönündə islahatlar, biznes mühitinin yaxşılaşdırılması, dövlət-özəl tərəfdaşlığı, azad olunmuş ərazilərimizdə reinteqrasiya tədbirləri və s. barədə məlumat verilib, IFC ilə tərəfdaşlığın gücləndirilməsi imkanlarının olduğu bildirilib.

Tərəflər əməkdaşlığın prioritet istiqamətləri, dövlət-özəl tərəfdaşlığının təşviqi sahəsində görülən işlər və perspektiv layihələr barədə müzakirə aparıblar.

# Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın 12 may tarixli tələbini yekdilliklə rədd edib

Beynəlxalq Ədalət Məhkəməsinin iyulun 11-də dərc edilmiş 2023-cü il 6 iyul tarixli qərarında qeyd edildiyi kimi, məhkəmə İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı məhkəmə işi üzrə 22 fevral 2023-cü il tarixli Qərarında dəyişiklik edilməsi məqsədilə Ermənistanın 2023-cü il 12 may tarixli tələbini yekdilliklə rədd edib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib. Beləliklə, məhkəmə qərarı ilə bir daha təsdiq edib ki, "2023-cü il aprelin 23-dən etibarən Laçın dəhlizində və ya onun boyunca yerləşdirilən hər hansı bir və bütün şəxsi heyəti geri çəkməyi və belə şəxsi heyətin Laçın dəhlizi üzərində və ya Laçın dəhlizi boyu yerləşdirilməsindən çəkinməyi Azərbaycandan tələb edən əlavə müvəqqəti tədbiri daxil etməklə" 2023-cü il 22 fevral tarixli Qərara dəyişiklik etmək barədə Ermənistanın tələbi əsassızdır.

Ermənistanın yalanlarının əksinə, Beynəlxalq Ədalət Məhkəməsi nəzarət-buraxılış məntəqəsinin Laçın yolu boyunca hərəkətə mane olduğunu və Azərbaycanın 22 fevral Qərarını pozduğunu müəyyən etməyib.

Ermənistanı tərəflərin mübahisəsini daha da gərginləşdirə biləcək hər hansı hərəkətdən çəkinmək barədə məhkəmənin Qərarına əməl etməyə və Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyətinə maneə törədən davranışa son qoymağa çağırırıq.

# Zaman keçdikcə BTC daha əzəmətli görünür

## Kəmərin tam sistem kimi istifadəyə verilməsindən 17 il keçir

2006-cı il iyulun 13-də tam sistem kimi istifadəyə verildiyi vaxtdan indiyədək Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri ahəngdar və təhlükəsiz şəkildə fəaliyyət göstərir. Bu, əzəldən BTC-yə inam bəsləyənlərin düzgün strategiya seçdiyinin təsdiqi, bir zamanlar layihəyə əngəl törətməyə cəhd edənlərə isə tutarlı cavabdır.




BTC-yə ilk neft 2005-ci ilın mayında Səngəçal terminalından vuruldu. Bununla kəmərin Azərbaycan hissəsi işə düşdü. Həmin ilin oktyabrında Gürcüstan hissəsi də istifadəyə verildi. BTC-nin Ceyhan terminalına çatdırdığı xam neftlə ilk tanker 2006-cı il iyunun 4-də yükləndi. O vaxt təqribən 600 min barel "Azəri-Çıraq-Günəşli" nefti "British Hawthorn" tankerinə vurularaq dünya bazarlarına göndərildi. 17 il əvvəl kəmərin tam bir sistem kimi istismara başlaması Ceyhan şəhərində təntənə ilə qeyd olundu. Tədbirdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət başçıları, səhmdar şirkətlərin rəhbərləri, hörmətli qonaqlar iştirak etdilər.

Prezident İlham Əliyev BTC-nin istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək demişdir: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

İndi bunların hamısı reallıqdır. BTC layihəsinin əməliyyatçısı olan bp şirkətinin məlumatına görə, istismara veriləndən 2023-cü ilin birinci rübünün sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 539 milyon tondan çox (4 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5314 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilkdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi bu il yanvarın 18-də qeyd edilib. Cari ilin birinci rübü ərzində BTC ilə ixrac olunmuş təqribən 7 milyon ton (təxminən 53 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 70 tankerə yüklənib və yola salınıb.

Hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC Xəzərin digər regional xam neft və kondensat həcmlərini (Qazaxıstan və Türkmənistan) də nəql edir.

Əvvəlcə gündə 1 milyon barel neft ötürmək gücündə layihələndirilən kəmərin nəqletmə qabiliyyəti sonralar 20 faiz artırılıb. İndi BTC hər gün 1,2 milyon barel neft ötürmək gücünə malikdir. Xatırladaq ki, BTC Ko.-nun səhmdarları bp (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies"(5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

BTC Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edir. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik yolboyu uzanır. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür.

Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə Azərbaycanda - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyə ərazisindədir.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir.

Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə həmçinin ekoloji riskləri azaldır. Başlıca nailiyyətlərdən biri də kəmərin təhlükəsizliyidir. Boruları etibarlı şəkildə örtüklənmiş və bütün marşrutu boyu torpaq altında basdırılmış bu kəmər, necə deyərlər, səssiz-səmirsiz, ətraf mühitə ziyan vurmadan və insanlara narahatlıq gətirmədən işləyir. Bir sözlə, BTC bütün sınaqlardan şərəflə çıxır. Məlum olduğu kimi, Türkiyədə kəmərin bir hissəsinin keçdiyi bölgələrdə bu ilin fevral ayında zəlzələ baş vermişdi. Lakin istər nefti nəql edən borular, istərsə də yerüstü qurğular heç bir mənfi təsirə məruz qalmamışdı. Bu da BTC-nin necə keyfiyyələ inşa olunduğunun, möhkəmliyinin daha bir təsdiqi!

BTC möhtəşəm, uğurlu, əgər belə ifadə etmək mümkünsə, xeyirxah bir kəmərdir. O təkcə ölkəmizə deyil, bütün regiona xeyir-bərəkət bəxş edir. Həm birbaşa gəlirləri, həm də kəmərboyu ərazilərdəki sosial layihələri ilə.

İllər keçir, zaman yeni qlobal layihələrin yerinə yetirilməsini gündəmə gətirir. Lakin onlar BTC-nin əhəmiyyətini azaltmır, əksinə, bu kəmər böyük yolun başlanğıcında daha əzəmətli görünür və regionun neft ixracı arteriyası kimi öz yoluna inamla davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Yeni qanunvericilik aktları ilə ölkəmizdə himayədar ailə modelinin tətbiqinə başlanılır

## Himayədar ailələrə himayəyə götürdükləri hər uşağa görə aylıq və onlara mövsümi geyim alınması üçün hər rübdə birdəfəlik müavinət veriləcək

**Prezident İlham Əliyev tərəfindən imzalanan yeni qanunvericilik aktları ilə Azərbaycanda himayədar ailə institutunun tətbiqinə başlanılır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, dünyada geniş yayılmış təcrübələrdən biri olan "Himayədar ailə" qayğı modeli valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların qısa və ya uzun müddət ərzində dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsini nəzərdə tutur. Məqsəd həmin uşaqların ailə mühitində yaşaması və inkişafına şərait yaratmaqdır.

Dövlət başçısının 2022-ci il 15 fevral tarixli fərmanına əsasən himayədar ailə sahəsində dövlət siyasəti, tənzimləmə və dövlət nəzarəti sahəsində səlahiyyətlər ötən il noyabrın 1-dən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib. Himayədar ailə modelinin ölkəmizdə tətbiqi ilə bağlı nazirlik tərəfindən qabaqcıl dünya təcrübəsi, xüsusilə Türkiyə təcrübəsi öyrənilməklə müvafiq işlər aparılıb. Övladlığagötürmə sahəsində olduğu kimi, himayədar ailə qayğı modeli üzrə müraciətlərin qəbulu və xidmətlərin idarə edilməsi də nazirliyin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsistemi üzərindən həyata keçiriləcək. Bununla bağlı altsistemdə müvafiq təkmilləşdirmə işləri yerinə yetirilib.

Himayədar ailə nazirliklə himayədar valideyn olmaq istəyən şəxslər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilə əsasında yaranacaq. Himayədar ailənin yaranması 3 mərhələdə həyata keçiriləcək:

- Himayədar valideyn olmaq istəyən şəxslərin uçota alınması;
- Himayədar ailəyə verilmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən olunması;
- Nazirlik ilə himayədar valideyn olmaq istəyən şəxslər arasında müqavilənin bağlanması.

Aşağıda qeyd olunan Azərbaycan vətəndaşları himayədar valideyn ola bilər:

- yetkinlik yaşına çatmış hər iki cinsdən evli və ya subay olan,
- ən azı ümumi orta təhsilli və sağlamlıq vəziyyəti normal olan,
- ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkumluğu olmayan,
- Azərbaycan Respublikasının ərazisində daimi yaşayan.

Uşaqların öz qohumlarına himayədar ailəyə verilməsi halı istisna olmaqla, ailədə adambaşına düşən orta aylıq gəlir ailə üzvlərinin hər biri üçün (himayədar ailəyə veriləcək uşaqlar istisna olmaqla) ölkə üzrə müəyyən olunmuş yaşayış minimumunun məbləğindən, yaşayış sahəsinin adambaşına düşən ümumi sahəsi isə qanunla müəyyən edilmiş yaşayış sahəsinin ayrılma normasından az olmamalıdır.

Himayədar valideyn olmaq istəyən nikahda olan şəxslərdən biri (ər və ya arvad) üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaş müəyyən olunub. Nikahda olmayan şəxslə ona himayəyə verilən uşağın yaş fərqi 18-dən az olmamalıdır. 7 yaşına çatmış uşaq himayədar ailəyə onun fikri nəzərə alınmaqla, 10 yaşı tamam olmuş uşaq isə yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə veriləcək.

Himayədar ailələrə himayəyə götürdükləri hər uşağın tərbiyə edilməsinə görə aylıq müavinət uşaqların yaşından və sağlamlıq vəziyyətindən asılı olaraq 355 - 435 manat arası məbləğlərdə müəyyən edilib. Həmin uşaqlara mövsümi geyim alınması üçün himayədar ailəyə birdəfəlik müavinət (hər rübdə 200 manat) də veriləcək.

Prezident İlham Əliyev tərəfindən imzalanan yeni qanunvericilik aktları ilə eyni zamanda valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı mövcud olan mexanizm təkmiləşdirilib. Belə ki, yeni qanunvericilik aktlarında valideyn himayəsindən məhrum olmuş uşaq barədə məlumat alındıqda uşağın və onun ailəsinin həyat şəraitini, valideyn himayəsindən məhrumolma səbəblərini müəyyən etmək məqsədilə ilkin və əsaslı qiymətləndirilmənin aparılması, ailə inkişaf planlarının tərtib olunması, ailəyə yönəlik sosial dəstək tədbirlərinin göstərilməsi və s. məsələlər əksini tapıb.

# Sürətli, operativ və təhlükəsiz...

## Azərbaycanın dəmir yolu infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin ən mükəmməl seqmentidir

Beynəlxalq münasibətlərdə dövlətlərin yeri və rolu müxtəlif meyarlarla ölçülür ki, onlardan da biri qlobal nəqliyyat dəhlizlərində iştirak səviyyəsidir. Bu, hələ karvan yollarının mövcud olduğu keçmiş dövrlərdə belə olub, Dördüncü Sənaye İnqilabının yaşandığı müasir çağımızda da elədir.  Çünki nəqliyyat dəhlizində yer almaq, tranzit və logistik imkanlarına malik olmaq dövlətin maliyyə imkanlarına əlavə güc qatan iqtisadi hadisədir.

Qlobal mənzərə göstərir ki, bu reallığı vaxtında düzgün dəyərləndirən dövlətlər tranzit rəqabətin geniş vüsət aldığı hazırkı şəraitdə daha şanslıdırlar. Bu baxımdan Azərbaycan Respublikası da beynəlxalq səviyyədə hazırkı nəqliyyat rəqabətinin uğur qazanmış tərəfi kimi qəbul olunur. Başqa cür desək, artıq Azərbaycanın qlobal nəqliyyat dəhlizlərinin əsas qovşaqlarından birinə çevrilməsi dünyada qəbul edilən reallıqdır.

Əlbəttə, dövlətin hər bir uğuru ona rəhbərlik edənlərin qətiyyətinə, siyasi iradəsinə, uzaqgörənliyinə, reallıqları düzgün dəyərləndirmələrinə əsaslanır. Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinə böyük töhfələr verən müasir mükəmməl nəqliyyat-kommunikasiya sisteminin formalaşması tarixinə bu prizmadan yanaşdıqda görürük ki, əldə etdiyimiz uğurların əsasında əbədiyaşar şəxsiyyət, xalqımızın Ümummilli Lideri, bu il anadan olmasının 100 illiyini böyük sevgi ilə qeyd etdiyimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiya və qarşıya qoyulmuş hədəflər dayanır.

Məlumdur ki, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması və inkişaf etdirilməsi baxımından olduqca əlverişli coğrafi və strateji mövqeyə malikdir. Hələ qədim dövrlərdə tarixi İpək yolu məhz indiki Azərbaycan ərazilərindən keçib. SSRİ-nin dağılması və Çinin 90-cı illərdən etibarən Avrasiyanın iqtisadi sistemində aparıcı mövqelərə yüksəlməsi isə tarixi nəqliyyat əlaqələrini yenidən aktuallaşdırdı. Təbii ki, belə bir vaxtda Azərbaycan dövləti yeni çağırışlara qarşı səssiz dayana bilməzdi. Təsadüfi deyil ki, Azərbaycan 1993-cü ildə qəbul edilən Avropa İttifaqının TRASECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) proqramına qoşulub. TRASECA Cənubi Qafqaz və Mərkəzi Asiyanın yeni müstəqillik qazanmış dövlətlərinin nəqliyyat infrastrukturunun bərpasına yardım göstərilməsi, Avropa və Asiyanı birləşdirən ən qısa nəqliyyat dəhlizinin yaradılması və bununla regionun Qərbə inteqrasiyası, həmçinin bu dövlətlərin iqtisadiyyatlarının dirçəldilməsinə və inkişafına yönəldilmiş proqramların reallaşdırılmasına xidmət edən etibarlı nəqliyyat sisteminin qurulması məqsədini daşıyır.

TRASECA Proqramının uğur qazanmasına yönəlmiş ən böyük hadisə isə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin sentyabr ayında Bakıda keçirilən tarixi İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransdır. Bu konfransda iştirak etmək üçün Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstanın dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin Bakıya səfər etməsi sadəcə tarixi İpək yolunun bərpası ilə bağlı istək və arzunun ifadəsi deyildi. 8 dövlət başçısının və müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana gəlməsi həm də Heydər Əliyevin bütün tərəfləri ümumi maraqlar ətrafında səfərbər etməsinin göstəricisi idi. Ən əsası bu, Heydər Əliyevə olan inam və etimadın ifadəsi idi. Bütövlükdə isə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda belə bir tədbirin təşkil olunması Azərbaycanın TRASECA Proqramının həyata keçirilməsinə xüsusi töhfəsinin təcəssümünə çevrildi. Məhz bu konfransın yekununda "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş"in imzalanması sonrakı dövrdə TRASECA ayrı-ayrı dövlətlər üzrə qarşıya qoyulmuş məqsədlərin reallaşmasına xidmət etdi. Prezident İlham Əliyevin 2019-cu ilin dekabr ayında TRASECA-nın 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına məktubunda qeyd edildiyi kimi, TRASECA proqramı üzv ölkələr arasında multimodal daşımaların təşviqi, tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsi, habelə həmin ölkələrin iqtisadi potensialının artırılması işinə mühüm töhfələr vermişdir. Prezident İlham Əliyevin qeyd etdiyi məqamların hər birini ayrı-ayrılıqda təhlil edib nəzərdən keçirsək görərik ki, ötən illər ərzində Azərbaycanın həm nəqliyyat potensialının hərəkətə gətirilməsi, həm də respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərində iştirakının təmin edilməsi yönündə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiya layiqincə həyata keçirilmiş, qarşıya qoyulmuş məqsədlər reallaşmışdır.

Ümumiyyətlə, ötən 20 ildə Prezident İlham Əliyevin siyasi kursu Azərbaycanı regionda liderə, qlobal səviyyədə güclü mövqeləri olan dövlətə çevirmişdir. Qürur hissi ilə qeyd etməliyik ki, İlham Əliyevin müdrik fəaliyyətinin nəticəsi kimi Azərbaycan iştirak etdiyi bütün siyasi, iqtisadi proseslərdə etibarlı tərəfdaş kimi tanınır və bunu xarici dövlət, hökumət başçılarının dilindən də eşitmək mümkündür. Respublikamız bu kimi tarixi uğurlarına qlobal aktuallıq kəsb edən məsələlərə verdiyi töhfələrlə nail olmuşdur. Məsələn, bu gün Azərbaycan Avropa İttifaqı üzvü olan dövlətlərin enerji təhlükəsizliyinin təmin olunmasında aparıcı rol oynayır. Bunun nəticəsidir ki, Bolqarıstan, Macarıstan kimi dövlətlərin enerji sahəsində son dövrlərə qədər mövcud olmuş mənbələrdən asılılıqları aradan qaldırılmışdır.

Eyni zamanda Azərbaycan bu illərdə həyata keçirdiyi nəqliyyat layihələri ilə həm regionun, həm də bütövlükdə Avrasiyanın nəqliyyat dəhlizlərinin inkişafına böyük töhfələr vermişdir. Prezident İlham Əliyevin respublikamızın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu hədəf və vəzifələrə uyğun olaraq həyata keçirdiyi tədbirlər əvvəldə qeyd edildiyi kimi, TRASECA proqramının uğurla reallaşmasını təmin etməklə yanaşı, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərində Azərbaycanın rolunu əhəmiyyətli dərəcədə yüksəltmişdir.  Eyni zamanda son illərdə dünyada baş verən gərgin geosiyasi proseslər Çindən başlamaqla Avropaya doğru Xəzər dənizindən və Azərbaycandan keçməklə Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) ideyasının meydana çıxmasına səbəb olmuşdur. Bütün bu nəqliyyat dəhlizlərində mövqelərimizin güclənməsində, başqa cür desək, beynəlxalq yük daşımaçılığında tranzit ölkə olaraq Azərbaycanın seçilməsində isə respublikamızın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, o cümlədən dəmir yollarının imkanlarının artırılması böyük rol oynayır. Məsələn, Azərbaycanın təşəbbüsü ilə təməli qoyulan və 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın "Şərq-Qərb" nəqliyyat dəhlizində tələbləri ödəyə bilən tranzit və logistika mərkəzinə çevrilməsi yönündə reallaşan ən mükəmməl nəqliyyat layihələrindən biridir.

Hazırda Ukraynada gedən müharibə Çindən Avropaya Rusiyadan keçməklə uzanan "Şimal" dəhlizindən istifadəni minimuma endirib. Çindən və Hindistandan keçməklə Avropaya cənub istiqamətində daşımaçılıq əsasən dəniz nəqliyyatı ilə həyata keçirilir ki, bu da kifayət qədər vaxt itkisi deməkdir. Bu mənada Orta dəhliz ideyasının meydana çıxması yeni çağırışlardan irəli gəlir ki, hazırda bu məsələdə əsas diqqət Azərbaycanın çox geniş logistik imkanlarına və şaxələndirilmiş nəqliyyat infrastrukturuna yönəlib.

Qeyd edək ki, əgər yük qatarı Çindən Avropaya doğru "Şimal" dəhlizi ilə 10 min kilometr məsafə qət etməlidirsə, Xəzər dənizindən və Azərbaycandan keçməklə cəmi 7 min kilometr yol getməlidir. Cənub dəhlizi ilə isə Çindən Avropaya daşımaçılıq məsafəsi təxminən 20 min kilometrə çatır. Göründüyü kimi, Çindən Avropaya yüklərin çatdırılması müddəti Xəzər vasitəsilə Azərbaycandan keçdikdə 2-3 dəfə azalır. Beləliklə, bu kimi reallıqlar, əsasən, təhlükəsiz və operativ yük daşımaçılığı Orta dəhliz ideyasının reallığa çevrilməsini şərtləndirir ki, bu məsələdə də Azərbaycan, Türkiyə, Qazaxıstan Gürcüstan və Özbəkistanın işbirliyi sözügedən dəhlizi cəlbedici edəcək.

Bu gün dövlətimizin milli prioritetlərindən biri Zəngəzur dəhlizinin açılmasına nail olmaqdır. Torpaqlarımızın azad edilməsi kimi tarixi hadisənin timsalında milli maraqlarını qətiyyətlə təmin edən Azərbaycanın Zəngəzur dəhlizinin açılmasına nail olacağı şübhəsizdir. Bu isə gələcək perspektivdə "Şərq-Qərb" dəhlizinin və Orta dəhlizin imkanlarını daha da artırmaqla Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərindəki mövqelərinə yeni güc qatacaq.

Bütün bunlarla yanaşı, Azərbaycanın nəqliyyat infrastrukturu "Şimal-Cənub" nəqliyyat dəhlizinin reallaşmasına böyük töhfələr verib. Proqnozlara əsasən, tam gücü ilə fəaliyyətə başladıqdan sonra "Şimal-Cənub" dəhlizi Fars körfəzi ölkələrinin və Hindistanın Avropaya,  Azərbaycanın, Rusiyanın və Orta Asiya dövlətlərinin Fars körfəzinə və Hindistana çıxışına imkan verəcək. Məlumdur ki, bu dəhlizi Azərbaycanın tranzit potensialından əhatəli istifadəni zəruri edir. Ona görə Prezident İlham Əliyev hələ 2015-ci ilin dekabr ayında "Şimal-Cənub" nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsində işlərin sürətləndirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamın icrası sayəsində Azərbaycan dəmir yollarının İran dəmir yolları şəbəkəsi ilə əlaqələndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Bu ilin may ayında Rusiya və İran prezidentlərinin Rəşt-Astara dəmir yolu hissəsinin tikintisinə dair sazişin imzalanması da  bu dövlətlərin Azərbaycandan keçən bu marşrutun seqmentlərinin yaradılması işinin sürətləndirilməsində maraqlı olduqlarını göstərir.

Azərbaycan son onilliklərdə həm Qədim İpək yolu üzərində, həm də şimal-cənub istiqamətində olduqca güclü, təkmil və bir-birini tamamlayan nəqliyyat infrastrukturları yaradıb.  İstər dəmir yollarımız, istər avtomobil yollarımız, istərsə də hava limanlarımız ən müasir standartlara cavab verir. Eləcə də Azərbaycan olduqca mükəmməl logistik imkanlara malikdir. 2018-ci ildə istifadəyə verilən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi Azərbaycanın logistik imkanlarını daha da artırıb.

Azərbaycanın çevik, sürətli və təhlükəsiz nəqliyyat dəhlizlərinin formalaşdırılmasına verdiyi töhfələr qlobal səviyyədə təqdir olunur. Həm Çin, həm Avropa İttifaqı rəsmiləri Azərbaycanın nəqliyyat dəhlizlərinin inkişafına xidmət edən tədbirlərini yüksək qiymətləndirirlər. Beləliklə, hazırkı gedişat ondan xəbər verir ki, Azərbaycanın perspektivdə beynəlxalq nəqliyyat dəhlizlərində iştirak səviyyəsi daha da yüksələcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



## Narkomaniya ilə mübarizə sağlam həyata təminatdır

# Qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin ümumi dəyəri açıqlanıb

Bu ilin yanvar-iyun ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.

2022/2023-cü illərin yanvar-iyun ayları ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar və qanunsuz dövriyyədən götürülən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları barədə müqayisəli məlumat

| | 2022-ci il yanvar-iyun | 2023-cü il yanvar-iyun | Fakt | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 5778 | 5881 | +103 | +1,8 |
| Satış | 2053 | 2048 | -5 | -0,2 |
| Saxlama | 3463 | 3638 | +175 | +5 |
| Əkin | 206 | 166 | -40 | -19,4 |
| Digərləri | 56 | 29 | -27 | -48,2 |
| Götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı | | | | |
| | 2022-ci il yanvar-iyun | 2023-cü il yanvar-iyun | Fərq | %-lə |
| Cəmi | 3 ton 418 kq 320,92 qr | 4 ton 623 kq 028,027 qr | +1 ton 204 kq 707,107 qr | +26 |
| Marixuana | 1 ton 028 kq 428,674 qr | 2 ton 510 kq 387,573 qr | +1 ton 481 kq 958,899 qr | +144 |
| Həşiş | 20 kq 547,544 qr | 50 kq 885,902 qr | +30 kq 338,358 qr | +147,6 |
| Tiryək | 198 kq 089,061 qr | 183 kq 113,261 qr | -14 kq 975,8 qr | -7,5 |
| Heroin | 1 ton 497 kq 266,592 qr | 1 ton 517 kq 650,954 qr | +20 kq 384,362 qr | +1,4 |
| Kokain | 199 qr | - | -199 qr | -100 |
| Psixotrop maddələr | 557 kq 968,492 qr | 247 kq 007,907 qr | -310 kq 960,585 qr | -55,7 |
| Digər narkotik vasitələr | 115 kq 821,557 qr | 113 kq 982,43 qr | -1 kq 839,127 qr | -1,6 |

Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupundan məlumat verilib. Bildirilib ki, bu ilin yanvar-iyun ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilik 5881 cinayət faktı aşkarlanıb. Onlardan 2048-i narkotik vasitələrin qanunsuz satışı, 3638-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 166-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 29-u isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 4 ton 623 kiloqram 28,027 qram narkotik vasitənin və psixotrop maddənin 1 ton 517 kiloqram 650,954 qramını heroin, 2 ton 510 kiloqram 387,573 qramını marixuana, 183 kiloqram 113,261 qramını tiryək, 50 kiloqram 885,902 qramını həşiş, 247 kiloqram 7,907 qramını psixotrop maddələr, 113 kiloqram 982,43 qramını digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 38418 ədəd həb metadon, 8476 ədəd çətənə bitkisi, eləcə də 3 kiloqram 153,268 qram, 7631 ədəd kapsul və 953 ədəd həb güclü təsir edən maddə və 40,682 qram prekursor qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 298,98 hektar sahədən çəkisi 147 ton 477 kiloqram 276,98 qram olan 438 min 18 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Müvafiq dövr ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4277 nəfər cəlb edilib, onlardan 4179-u kişi, 98-i qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 49 nəfəri xarici ölkə vətəndaşlarıdır. Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 142 fakt aşkar edilib. Həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 959 kiloqram 617,071 qram və 38418 ədəd həb metadon narkotik vasitə və 7631 ədəd kapsul, 953 ədəd həb güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 135-ü qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən 1 ton 17 kiloqram 567,9 qram və 190 ədəd metadon narkotik vasitə, psixotrop maddə və 157,5 qram güclü təsir edən maddə müsadirə edilib. 1530 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 958 kiloqram 88,4 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Bu ilin yanvar-iyun aylarında qanunsuz dövriyyədən götürülmüş 4 ton 623 kiloqram 28,027 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 219 milyon 430 min manat kimi qiymətləndirilir.

Təhlil göstərir ki, 2022-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 2023-cü ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkarlanan faktların ümumi sayı 103, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 175, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 8 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 186 nəfər, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 1 ton 204 kiloqram 707,107 qramdır. O cümlədən, narkotiklərin qanunsuz satış ilə bağlı faktların sayı 5, digər növ cinayət faktların sayı 27, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 40, qrup halında olan cinayətlərin sayı isə 31 fakt azalıb.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 44510 nəfər istiqamətləndirilib. Onların narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1377 nəfərindən 744-nün istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Hesabat dövrü ərzində İşçi Qrupu tərəfindən aidiyyəti qurumlarla 5 Tədbirlər Planı imzalanmış və ümumilikdə maarifləndirmə tədbirləri çərçivəsində 89 tədbir (49 maarifləndirici görüş, 26 təlim, 3 mədəni-kütləvi tədbir, yutub kanalı vasitəsilə yayımlanan 1 film, 1 rəsm müsabiqəsi, 7 sosial layihə, 1 veloyürüş və 1 marafon) təşkil edilib.

Müvafiq dövrdə "802" qaynar xətt telefon zəng xidmətinə 652 vətəndaş müraciəti daxil olub. Onların 88-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 228-i narkotik asılılıqdan müalicə, 336-sı isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 316 məktub ünvanlanıb. Belə ki, 802 qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

# Sərhəd tanımayan qlobal bəla

XXI əsrin qlobal sosial problemlərindən biri olan narkomaniya sərhəd tanımır. O, dilindən, dinindən, irqindən asılı olmayaraq, hər kəs üçün təhlükəlidir. Bu dəhşətli bəla cinayətkarlığı və zorakılığı artırmaqla cəmiyyətlərin tədricən məhv olmasına gətirib çıxarır.



Hazırda dünyada milyonlarla insan "ağ ölüm"ün əsirinə çevrilib. Statistikaya nəzər yetirdikdə vəziyyətin nə qədər acınacaqlı olduğunun şahidi oluruq. Ekspertlərin fikrincə isə, qeydiyyata düşməyən narkomanların sayı daha çox olduğuna görə, statistik rəqəmlər də vəziyyəti tam əks etdirmir.

Bu bəla ölkəmizdən də yan keçməyib. Lakin bu istiqamətdə aparılan davamlı mübarizə tədbirləri nəticəsində son illərdə mühüm uğurlar əldə olunub.

### Mübarizə tədbirləri effektiv nəticələr verir

Respublikamızda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri effektini verir. Bu işdə əsas yük hüquq-mühafizə orqanlarının payına düşür. Son dövrlər müvafiq dövlət qurumları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə daha da gücləndirilib. 2022-ci ildə həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 10640 cinayət faktı aşkarlanıb. Onlardan 3441-i narkotik vasitələrin qanunsuz satışı, 6711-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 392-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 96-sı isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə təxminən 5,5 ton narkotik vasitə və psixotrop maddə müsadirə edilib. Bu isə 2021-ci illə müqayisə edildikdə 1ton 137 kq daha azdır.

Ötən ilin 5-6 may tarixlərində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı sayəsində 1430 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 2,5 tondan artıq müxtəlif növ narkotik vasitə və psixotrop maddə, o cümlədən 27628 ədəd çətənə bitkisi aidiyyəti təşkilatların və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə yandırılaraq məhv edilib.

2023-cü ilin ilk yarımilində isə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə nəticəsində 5881 cinayət faktı aşkarlanıb. Onlardan 2048-i narkotik vasitələrin qanunsuz satışı, 3638-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 166-sı qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 29-u isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlıdır. Bu zaman ümumilikdə 4 ton 623 kq narkotik vasitə və psixotrop maddə müsadirə olunub.

Hesabat dövründə 298,98 hektar sahədən çəkisi 147 ton 477 kq 276,98 qr olan 438018 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

### Cinayətkarlar məsuliyyətə cəlb edilir

Narkomaniya ilə mübarizə istiqamətində mütəmadi olaraq praktik və preventiv tədbirlər həyata keçirilir. 2022-ci ildə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 8177 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarından 48-i İran İslam Respublikası, 19-u Rusiya, 15-i Türkiyə, 10-u Gürcüstan, 2-si Ukranya, 2-si Türkmənistan, 1-i Qazaxıstan, 1-i Pakistan və 1-i Maldiv vətəndaşıdır. Onlardan təxminən 1 ton 38 min kq və 4548 həb müxtəlif növ narkotik vasitə və psixotrop maddə, həmçinin 16759 ədəd narkotik tərkibli çətənə bitkisi götürülüb.

2022-ci il ərzində hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi ilə bağlı 276 fakt aşkar edilib. Bu faktlar üzrə dövriyyədən təxminən 3 ton narkotik vasitə çıxarılıb.

### Güc birlikdədir

Ölkəmizdə narkomaniyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Mütəmadi görülən tədbirlər, atılan addımlar bu sosial bəlaya qarşı prinsipial və barışmaz mövqenin göstəricisidir. Azərbaycan dövlətinin bu problemlə bağlı müəyyənləşdirdiyi strategiya uğurla reallaşdırılır, bu istiqamətdə qətiyyətli addımlar atılır.

"Ağ ölüm"lə mübarizə üçün hər kəs məsuliyyət daşıyır. Narkomaniya və onun fəsadları ilə bağlı yeniyetmə və gənclərin maarifləndirilməsi, sağlam həyat tərzinin təbliği davamlı olaraq həyata keçirilməlidir. İnsanlığı təhdid edən, sağlamlığa qənim kəsilən, əxlaqi və mənəvi dəyərləri sarsıdan bu bəlaya qarşı birlikdə mübarizə aparmaq çox vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Region Ermənistanın ekoloji terroru ilə üz-üzədir

Ermənistan Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində ekoloji terror törətməyə hazırlaşır. Belə ki, Arazdəyəndə iri metallurgiya zavodu inşa etməyi planlaşdıran Ermənistan bununla bütün regionun ekoloji durumunu təhlükə altına alır.







İyulun 11-də keçirilən 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bu məsələ ilə bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev Ermənistanın beynəlxalq ekoloji normaları kobud şəkildə pozduğunu diqqətə çatdırıb.

Xatırladaq ki, bir müddət əvvəl Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın baş naziri Nikol Paşinyana bu ölkənin dağ-mədən sənayesinin Cənubi Qafqazda ekoloji sabitliyi pozması barədə açıq məktub ünvanlayıblar. Məktubu ünvanlayan QHT nümayəndələrindən bir neçəsinin mövzu ilə bağlı fikirlərini öyrəndik.

### Ermənistanın məsuliyyətsizliyi fəlakətə yol aça bilər

"Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli deyib ki, Ermənistanın dağ-mədən sənayesi təkcə Azərbaycanın yox, bütövlükdə Cənubi Qafqazın ekoloji mühitinə ciddi təhdid yaradıb: "Bir müddət öncə Ermənistanın sərhədyanı bölgədə, Arazdəyəndə iri metallurgiya zavodu inşa etməsinə dair xəbər yayıldı və Azərbaycanın vətəndaş cəmiyyəti institutları buna dərhal etiraz səsini ucaltdı. Ermənistan bu zavodu inşa etməklə beynəlxalq konvensiyaları kobud şəkildə pozur. Buna görə biz haqlı olaraq etirazımızı bildirdik".

E.Cəfərli qeyd edib ki, Dayanıqlı İnkişaf Məqsədləri ekoloji, sosial və iqtisadi problemlərin həlli üçün hərtərəfli çərçivə təqdim edir: "BMT-yə üzv dövlətlər təmiz hava, təhlükəsiz içməli su və sanitariya kimi amilləri sağlamlığın ətraf mühit amilləri kimi tanıyıb. Eyni zamanda BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ hesab edir. Lakin Ermənistan bu ekoloji cinayətləri törətməklə, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin tamamilə əleyhinə çıxış edir. Bundan başqa, Azərbaycan tərəfinin razılığı olmadan sərhəddə belə bir zavodun tikintisi 1991-ci ildə qəbul olunmuş Espo Konvensiyasına da ziddir. Həm Azərbaycan, həm də Ermənistan bu konvensiyanı imzalayan dövlətlərdəndir. Espo Konvensiyasına uyğun olaraq, zavodun ətraf mühitə təsirinin hərtərəfli qiymətləndirilməsi aparılmalıdır. Bu barədə Prezident İlham Əliyev ötən günkü müşavirədə fikirlərini qətiyyətlə ifadə etdi".

Müsahibimizin sözlərinə görə, məlum olub ki, bütövlükdə Ermənistanın dağ-mədən sənayesi Azərbaycanın ətraf mühitinə, su resurslarına qarşı ekoloji təhlükə yaradır. "Qacarandakı Zəngəzur mis-molibden kombinatının, Qafandakı dağ-mədən kombinatının xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium, qurğuşun və digər ağır metal tərkibli mədən tullantıları Oxçuçayı və Araz çayını çirkləndirir. Əkərək mis-molibden kombinatının da ağır metal tərkibli mədən tullantıları Kərçivançay vasitəsilə Araz çayını zəhərləyir. Göyçə vilayətindəki ildə təxminən 10 min unsiya qızıl hasil edən Daşdəm Qızıl Mədəni yerli suları aramsız şəkildə çirkləndirir. Mədənin çirkab suları yaxınlıqdakı çayları, o cümlədən əsas içməli su mənbəyi olan Bərgüşad çayını zəhərləyir. Bərgüşad çayı isə Araza tökülür", - deyə o bildirib.

E.Cəfərli həmçinin əlavə edib ki, Lori vilayətindəki Axtala mədəni ildə təxminən 5 min ton mis və qurğuşun istehsal edir. Mədənin çirkab suları yaxınlıqdakı Tona çayını çirkləndirir. Həmin çay Kür çayına tökülür. Qafan Manqan Zavodu isə Cənubi Qafqaz regionu üçün vacib içməli su mənbəyi olan Bərgüşad çayını əhəmiyyətli dərəcədə çirkləndirir. Göründüyü kimi, Ermənistanın dağ-mədən sənayesinin tullantıları birbaşa və dolayısı ilə Azərbaycanın əsas içməli su qaynağı olan çaylarına ziyan vurur, tullantılar çayların flora və faunasını məhv edir. Bu azmış kimi çay kənarında yaşayan əhalinin sağlamlığına da ciddi təhdid yaradır.

İctimai Birliyin sədri qeyd edib ki, rəsmi İrəvan Ermənistanın bütün dağ-mədən sənayesi obyektlərinin qapılarını ekologiya və səhiyyə sahəsində ixtisaslaşmış ekspertlərin, Azərbaycanın bu sahədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatlarının üzünə açmalıdır: "Bizim Arazdəyən metallurgiya zavodu layihəsi ilə bağlı etirazlarımızdan sonra Ermənistanda belə bir rəy yaradıldı ki, guya biz onların iqtisadi inkişafını istəmirik. Amma bu, qərəzli yanaşmadır. Əlbəttə, ölkə daxilində hər hansı zavodu tikmək onların müstəsna hüququdur. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşəcək və o zavoddan ağır sənaye tullantıları transərhəd çaylarına axıdılacaqsa, bu, həm də bizim məsələmizdir".

E.Cəfərli vurğulayıb ki, QHT təmsilçiləri olaraq Ermənistana, beynəlxalq təşkilatlara müraciət ediblər. Lakin Ermənistana təsir gücünə malik olar digər beynəlxalq qurumlara da müraciət etmək lazımdır: "Müraciətimizdən sonra bir sıra ölkələrin vətəndaş cəmiyyəti təşkilatları Arazdəyəndə tikiləcək metallurgiya zavodunun həm sakinlərə, həm də planetimizə potensial zərərli təsirlərinə və baş verə biləcək ekoloji fəlakətə etiraz olaraq bəyanat yayıblar. Yəni artıq başqa dövlətlərin də vətəndaş cəmiyyəti fəalları Ermənistanın törətdiyi ekosidlə bağlı ciddi narahatdırlar. Ekofəallar anlayırlar ki, Ermənistanın bu məsuliyyətsiz davranışı regionda və bütövlükdə dünyada ciddi ekoloji fəlakətə yol aça bilər".

### Müsbət nəticələr əldə olunana qədər fəaliyyətimizi davam etdirəcəyik

"Vərəmsiz Gələcəyə Doğru" İctimai Birliyinin direktoru Çingiz Ramazanlı bildirib ki, Ermənistanın dağ-mədən sənayesində beynəlxalq ekoloji norma və standartların kobud şəkildə pozulması nəticəsində yaranmış ciddi ekoloji böhranla əlaqədar gözlənilən problemlər Azərbaycanda qeyri-hökumət təşkilatlarını çox narahat edir.

Onun sözlərinə görə, BMT-yə üzv dövlətlər təmiz hava, təhlükəsiz içməli su və kanalizasiya kimi amilləri sağlamlığa təsir edən ekoloji vasitələr kimi qəbul edirlər. Eyni zamanda BMT təmiz, sağlam və davamlı ətraf mühiti insanların əsas hüququ kimi tanıyır. "Lakin belə olan halda, Ermənistanın mədən və emal sənayesi təbiət üçün geridönməz problemlər yaradacaq fəaliyyətlə məşğuldur. Bununla Ermənistan hökuməti həm də BMT-nin 2014-cü ildə qüvvəyə minmiş "Beynəlxalq su axarlarının qeyri-naviqasiya istifadəsi haqqında qanun" Konvensiyasını -Transsərhəd Çaylar Konvensiyasını kobud şəkildə pozur. Nəzərə almaq lazımdır ki, bu konvensiyanın məqsədi transsərhəd su axarlarından ədalətli və davamlı istifadəni təmin etməkdir", - deyə direktor bildirib.

Ç.Ramazanlı əlavə edib ki, bu sənəd su ehtiyatlarının sosial-iqtisadi və ekoloji inkişaf üçün risk yaradacağı halda, təsirə məruz qala biləcək icmalarla sıx əməkdaşlığı və onların fikirlərini nəzərə almağı vacib bilir: "Lakin Ermənistan rəhbərliyi regionun şirin su ehtiyatlarına mənfi təsir göstərəcək mədən sənayesini təşkil edərkən qonşu kəndlərdə yaşayan gürcülərin, azərbaycanlıların və hətta ermənilərin özlərinin belə ətraf mühitin çirkləndirilməsi prosesində fikirlərini nəzərə almayıb. Bütün dünyanın qlobal ekoloji problemlərin həlli ilə məşğul olduğu bir vaxtda bədnam qonşumuzun bu qeyri-insani siyasəti ölkəmizin ictimai təşkilatları tərəfindən daim tənqid olunur. Real müsbət nəticələr əldə olunana qədər fəaliyyətimizi davam etdirəcəyik".

### Ermənistanın dağ-mədən sənayesinin fəaliyyəti qanunsuzdur

"Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva qeyd edib ki, Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqaz regionunda ekoloji sabitliyi pozması barədə baş nazir Nikol Paşinyana açıq məktublarının əsas məqsədi ermənilərin ekosidlərinə son verilməsinə nail olmaqdır: "Ermənistanın dağ-mədən sənayesinin fəaliyyəti qətiyyən şəffaf deyil və hesabatlılıq yoxdur. Ətraf mühit üzrə norma və standartlara, ümumiyyətlə, əməl edilmir. BMT-nin Espo Konvensiyasının tələbləri ciddi şəkildə pozulur. Əslində isə sərhəd ərazilərdə ətraf mühiti təhdid edəcək hansısa tikintidən söhbət gedirsə, qonşu ölkənin razılığı mütləq alınmalı, eyni zamanda ictimaiyyət həmin tikinti barədə məlumatlandırılmalıdır. Konvensiyanın tələblərindən biri təsirə məruz qalacaq insanların fikirləri öyrənilməli, onlarla dialoq aparılmalı və qərar qəbuletmə prosesinə sakinlər də cəlb edilməlidirlər".

P.Vəliyeva deyib ki, konvensiyanın şərtlərinə məhəl qoymayan Ermənistan Azərbaycan tərəfi ilə heç bir razılıq əldə olunmadan Arazdəyəndə iri metallurgiya zavodu tikməyə qərar verib: "Onların qanunsuz ekoloji fəaliyyətləri çərçivəsində bizim çaylarımız dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilir. Bu, hazırda davam edir. Bu mənada Ermənistan təkcə Espo Konvensiyasının deyil, Transsərhəd Çaylar Konvensiyasının tələblərini də kobud şəkildə pozur".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Ekspert:* "Ermənistanın vətəndaş cəmiyyəti də dağ-mədən sənayesinin ətraf mühitə mənfi təsirinə etiraz edir"

"Ermənistanın dağ-mədən sənayesində aparılan işlərin ətraf mühitə regional və qlobal təsirləri çox ciddi ekoloji böhrana yol açır. Bu ölkə BMT-yə üzv olmasına baxmayaraq, həmin təşkilatın qanun və konvensiyalarını ciddi şəkildə pozur. Ermənistanın öz vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları belə bununla bağlı etirazlarını bildirirlər. Bu, region üçün çox ciddi məsələyə çevrilib".

Bunu AZƏRTAC-a müsahibəsində "Səma və EKO" İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova deyib.

İctimai birliyin sədrinin sözlərinə görə, Ermənistanın dağ-mədən sənayesinin tullantıları Azərbaycana gələn bütün çayları zəhərləyir. Ətraf mühitin və onun komponentlərinin bu cür mənfi təsirə məruz qalması nəinki Azərbaycanı, eyni zamanda Gürcüstan, Türkiyə, hətta Ermənistanın özünü ekoloji təhlükə ilə üz-üzə qoyur: "Həm atmosferə buraxılan qazlar müxtəlif xəstəliklər yaradır, həm də su hövzələri çirkləndirilir. Nəinki Arazdəyəndə, Ermənistanın bir çox yerində tikilən zavodların tullantıları çaylara axıdıldığı üçün su ehtiyatlarımıza çox ciddi şəkildə zərər dəyir. Həmin çaylardan nəinki Azərbaycan, Gürcüstan, Ermənistanın özü də istifadə edir. Çayların suyundan kənd təsərrüfatında geniş istifadə edildiyi üçün iqtisadiyyatın bu önəmli sahəsi də böyük ziyana məruz qalır. Nəticədə xərçəng xəstəliyinə, müxtəlif dəri xəstəliklərinə, epidemiyalara səbəb olur. Buna görə də indi də Gürcüstanla birlikdə bəyannamə hazırlayıb Ermənistanın baş naziri Nikol Paşinyana ünvanladıq. Ümumiyyətlə, BMT-yə üzv olan ölkələr sağlamlıq, ətraf mühitlə bağlı qərarlar qəbul edir və yerinə yetirmək üçün öhdəlik götürürlər. Ermənistan isə həmin qərarların heç birinə məhəl qoymur. Bu səbəbdən onların törətdiklərinə ekoloji terror demək olar. Ermənistan ərazisində Kanada, ABŞ, Fransa, Almaniya kimi ölkələrin maraqları var. Həmin ölkələr metallurgiya zavodları tikir və digər region ölkələrini nəzərə almırlar".

# Gədəbəyin Söyüdlü kəndində təhlükəli maddələrin havanın tərkibində norma daxilində olduğu aşkarlanıb

"Gədəbəyin Söyüdlü kəndində iyunun 22-dən etibarən müvafiq yerli qurumların əməkdaşlarının iştirakı ilə monitorinqlər aparılıb. İlk gündən hava keyfiyyətinin yoxlanılması ilə bağlı aparılan nəticələri sakinlərə çatdırmağa çalışdıq".



AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bu gün keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, təhlükəli maddələrin havanın tərkibində norma daxilində olduğu aşkarlanıb. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən geniş formatda heyvan sağlamlığı, arıçılıq, bitkiçilik, torpaq münbitliyi istiqamətində geniş monitorinq işləri aparılıb. Bütün xəstəliklər üzrə statistik göstəricilər ölçülüb. Ölüm səviyyəsində Gədəbəyin Söyüdlü kəndi və ölkə üzrə statistik göstəricilər arasında ciddi fərqlər yoxdur.

Örüş, otlaq sahələrinin vəziyyəti KTN tərəfindən qiymətləndirilib. Ekoloji vəziyyətin sabit olduğu aşkarlanıb. Monitorinq zamanı götürülən torpaq nümunəsi ətrafında hazırda təhlillər aparılır. ETN tərəfindən aparılan monitorinq işlərində bəzi analizlər hələ ki tam bitməyib. Gədəbəydə 86 nöqtədə radiasiya fonu ölçülüb, göstəricilər norma daxilindədir.

Ərazidən keçən Gədəbəy və Mis çayda sionid kimi toksik maddələr aşkarlanmayıb. Dövlət orqanları ilə razılaşdırılmadan çay ətrafında tullantı gölü yaradılıb.

Əfsuslar olsun ki, Söyüdlü kəndində sosial ictimai layihələr həyata keçirilməyib və bu kənd sakinlərinin narazılığına səbəb olub.

FHN də Su anbarı ilə layihə sənədlərinin ekspertizadan keçirilmədiyini aşkarlayıb. Müvafiq təsdiqedici sənədlər FHN-ə təqdim edilməyib.

# Söyüdlü kəndinin yaxınlığında yerləşən gölün bəndlərinin dayanıqlığı ciddi yoxlanılacaq

"Gədəbəyin Söyüdlü kəndinin yaxınlığında yerləşən göl 2011-ci ildə istifadəyə verilib. Orada olan bəndlərin dayanıqlığı ilə bağlı ciddi yoxlamaların aparılması zəruridir".

AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bu gün keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, bununla bağlı tədqiqatların aparılması nəzərdə tutulur.

Mövcud tullantı anbarının istismar imkanlarının 3 aydan çox olmadığı, ikinci anbarın tikilməsinə razılıq olmamasını nəzərə alaraq müəssisənin işinin cari təmir və ətraf mühitinin sağlamlaşdırılması tədbirlərinin aparılması üçün dayandırılması təklif olunur. Beynəlxalq şirkətlərin monitorinqə dəvət olunması üçün danışıqlar aparılması nəzərdə tutulur. Nöqsanların aradan qaldırılması üçün ciddi tələblər qoyulub. İstismarçı şirkət tərəfindən lazımi layihələr həyata keçirilməsə, biz daha sərt tədbirlərin görülməsinə başlayacağıq.

Sabah Dövlət Komissiyasının iclası olacaq və orada təkliflər bir daha səsləndiriləcək. Bundan sonra orada səsləndirilən fikirlərlə bağlı məlumatı ictimaiyyətə açıqlayacağıq.

# Nazir: "Söyüdlü kəndində xəstələnmə səviyyəsi ümumi rayon üzrə orta statistik göstəricilərdən aşağıdır"

"Gədəbəy rayonunun Söyüdlü kəndində Səhiyyə Nazirliyi tərəfindən monitorinqlər aparılıb. Monitorinqlərin nəticələrinə görə, kənddə sağlamlıq nöqteyi-nəzərdən sakinlərə ciddi təsirlərin olmadığı müəyyən edilib".

AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bu gün keçirilən brifinqdə deyib. Nazir bildirib ki, Gədəbəy rayonun Söyüdlü kəndində xəstələnmə səviyyəsi ümumi rayon üzrə orta statistik göstəricilərdən aşağıdır.

"Bu da o deməkdir ki, xəstələnmə hallarının Söyüdlüdə olan tullantı ilə əlaqəli olduğu təsdiqlənməyib. 86 nöqtədə radiasiya fonu, zərərli qaz və digər əksər parametrlər üzrə göstəricilər normalar daxilində olub", - deyə nazir qeyd edib.

# Ermənistan silahlı qüvvələri ordumuzun Laçın rayonundakı mövqelərini atəşə tutub

İyulun 12-si saat 13:50-dən 17:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Qızılcıq və Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Minkənd və Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün mebel inventarlarının satın alınması məqsədilə *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz ) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyesterindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Təsdiqedici sənəd formatında əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **16.08.2023-cü il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **24.08.2023-cü il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **25.08.2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Bərdə və Ağcabədidə yerli qurumların kollektivləri və fermerlərlə görüş olub

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bərdə və Ağcabədi rayonlarında təsərrüfatlara baş çəkib, yerli qurumların kollektivləri və fermerlərlə görüşüb.



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir öncə Bərdə baramaqurutma müəssisəsinin fəaliyyəti ilə tanış olub, ilk dəfə dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində hibrid ipəkqurdu toxumlarının inkubasiyası, yaş barama istehsalı və tədarükü prosesinin təşkili ilə maraqlanıb. Məlumat verilib ki, bu il pilot layihə olaraq Bərdə və digər 6 rayon üzrə yaş barama tədarükünə özəl sektor cəlb olunub. İpəkqurdu toxumları yaş barama tədarük edəcək kümçülərin təsərrüfatlarında inkubasiya olunub, yem tədarükü, yaş baramanın təhvili, məhsulun qurudulması və saxlanılması prosesi xarici təcrübə əsasında təşkil edilib. Yaxın zamanlarda müəssisədə xammalın ilkin emalı prosesinə start veriləcək. Pilot layihənin nəticələri müzakirə olunduqdan sonra növbəti mövsümlərdə bu təcrübədən digər rayonlarda da istifadə olunması nəzərdə tutulur.

Nazir Bərdə Peşə Liseyində keçirilən Aqrar İnnovasiya Festivalında iştirak edib, müxtəlif stendlərdə nümayiş olunan aqrar texnologiyalarla tanış olub, aqrar fəaliyyətdə tətbiq olunan texnologiyaların təsərrüfatda təcrübi tətbiqi ilə bağlı fermerlərlə fikir mübadiləsi aparıb.

Kənd təsərrüfatı naziri səfər çərçivəsində Bərdə Dövlət Aqrar İnkişaf Mərkəzinin kollektivi ilə görüşüb, Regional Toxum Sertifikatlaşma Mərkəzinin, Regional Aqrokimya Laboratoriyasının fəaliyyəti ilə tanış olub.

Daha sonra Ağcabədi rayonuna səfər edən Məcnun Məmmədov Qarabağ Atçılıq Kompleksinə, Ağcabədi Toxum Emalı Zavoduna baş çəkib. Qarabağ Atçılıq Kompleksində damazlıq-seleksiya işlərinin təşkili, atların saxlanma şəraiti və yem tədarükü prosesi ilə tanış olan nazir öz tapşırıq və tövsiyələrini verib. Nazir həmçinin Ağcabədi Toxum Emalı Zavodunda toxumluq materialın qəbulu, çeşidlənməsi, dərmanlanması və qablaşdırılması prosesi ilə maraqlanıb.

Kənd təsərrüfatı naziri Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinə də baş çəkib, kollektivlə görüşüb, rayon üzrə yaş barama tədarükü, taxıl biçininin gedişi, yazlıq əkinlər, heyvandarlıq müəssisələrinin fəaliyyəti, payızlıq əkinlərin bəyanı prosesinə hazırlıq işləri barədə fikir mübadiləsi aparıb.

## Lənkəran Dövlət Universiteti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**Dəftərxana və təsərrüfat mallarının alınması**

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalarI vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 150.00 (bir yüz əlli) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir)*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat ( Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 avqust 2023-cü il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **10 avqust 2023-cü il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **11 avqust 2023-cü il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

**Lənkəran Dövlət Universiteti Füzuli küçəsi, 170 A ünvanında yerləşən I tədris korpusunun həyətində yerləşən Aqrar fakültəsi üçün baytarlıq klinikasının layihə cizgiləri və smetasının hazırlanması**

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 100.00 (yüz) AZN**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); Bank arayışı 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması; Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir).*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır.*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır. (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2023-cü ilin iyul ayı ərzində verilmiş olmalıdır.*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən).*
13. *Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.*
14. *Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **03 avqust 2023-cü il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **11 avqust 2023-cü il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **14 avqust 2023-cü il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# NATO Ukraynaya nə "hə" dedi, nə "yox"

## Türkiyə isə İsveçin Alyansa qoşulmaq istəyinə etiraz etmədi

Litvanın paytaxtı Vilnüsdə NATO-ya üzv ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən zirvə toplantısında mühüm qərarlar qəbul edilib.




İclas Şimali Atlantika Alyansına üzv olan 31 ölkənin, eləcə də dəvət olunmuş İsveçin rəhbərlərinin iştirakı ilə keçirilib. Bundan əlavə, sammitdə NATO-nun Hind-Sakit okean üzrə tərəfdaşları Yaponiya, Cənubi Koreya, Avstraliya və Yeni Zelandiya, eləcə də Avropa İttifaqı (Aİ) təmsil olunub.

Müzakirələrin açılışında çıxış edən NATO-nun baş katibi Yens Stoltenberq bildirib ki, NATO Avropa və Atlantika üzrə regional ittifaqdır. Onun üzləşdiyi problemlər qlobal xarakter daşıyır. Onun sözlərinə görə, Avro-Atlantik və Hind-Sakit okean regionlarında baş verənlər qarşılıqlı təsir baxımından böyük əhəmiyyət kəsb edir. Ukraynadakı münaqişə qlobal miqyasda ağır nəticələrə gətirib çıxarır, terrorizm və kiber təhlükələr sərhəd tanımır, avtoritar rejimlər bir-birinə yaxınlaşır.

Stoltenberqin fikrincə, onlar qaydalara əsaslanan qlobal nizamı qorumaq üçün birlikdə işləməlidirlər. Ona görə də NATO sammitində tərəfdaşların iştirakı çox vacibdir.

Sammitin əsas mövzularından biri müttəfiqlərin Ukraynanın Alyansa üzvlüyünə reaksiyası olub. Sammitdən əvvəl NATO-nun 20-dən çox ölkəsi Kiyevin Alyansa qoşulmaq istəyini dəstəkləyib. Onlardan bəziləri Vilnüsdə Ukraynanı NATO-ya dəvət etməyə çağırıblar. Digərləri isə hesab edirlər ki, Alyans Ukraynanın müraciətinə yalnız Rusiya ilə müharibə başa çatdıqdan sonra baxa bilər. Belə bir qərarın Rusiya ilə müharibəyə səbəb ola biləcəyindən ehtiyat edən Almaniya Ukraynanın dərhal NATO-ya qəbul edilməsinə qarşı çıxıb. ABŞ isə bildirib ki, Ukrayna Alyansa qoşulmağa hazır deyil, lakin Vaşinqton ona İsrailə verdiyi kimi təhlükəsizlik zəmanəti verə bilər.

NATO ölkələri Ukraynanın quruma daxil olması prosesini sadələşdirməyə razılaşıblar, lakin hələlik ölkəni Alyansa dəvət etmirlər. Sammitin birinci gününün kommünikesində deyilir ki, Kiyev bütün müttəfiqlər razılaşdıqdan və şərtlər yerinə yetirildikdən sonra dəvət alacaq. Bu şərtlər arasında korrupsiya ilə mübarizə zərurəti, dövlət idarəetmə institutlarının, o cümlədən təhlükəsizlik və müdafiə sektorlarının modernləşdirilməsi istiqamətində islahatlar, habelə NATO standartlarına uyğunluq məsələləri var.

Alyans üzvləri Fəaliyyət Planından imtina edərək Kiyevin üzvlük prosesini bir mərhələyə endirib və gücləndirilmiş siyasi və praktiki dəstək paketi barədə razılığa gəliblər. Dəstək paketi böhran vəziyyətlərində məsləhətləşmələr üçün platformaya çevrilməli olan Ukrayna-NATO Şurasının işə salınmasını və Ukrayna ordusunun modernləşdirilməsinə və NATO standartlarına keçməsinə yönəlmiş ildə 500 milyon dollarlıq uzunmüddətli hərbi yardım proqramını özündə ehtiva edir.

Fransa lideri Emmanuel Makron sammitin ilk günündə deyib ki, Paris SCALP raketlərini Ukraynaya təhvil verəcək. Onun fikrincə, onlar üçün Ukraynaya dəstək vermək, NATO-nun birliyi haqqında siqnal göndərmək vacibdir.

Röyter agentliyinin məlumatına görə, SCALP-nin bir hissəsi artıq Ukraynadadır. Ümumilikdə agentlik bildirib ki, Paris Kiyevə 50-yə yaxın belə raket göndərmək niyyətindədir.

Bu arada, Kreml Fransanın qərarını səhv adlandırıb və əlavə edib ki, bu, Ukrayna tərəfi üçün ciddi fəsadlar yaradacaq.

Sammitin digər mühüm mövzusu Türkiyənin İsveçin alyansa qoşulmaq istəyinə dəstək vermək qərarı olub. Bu, Vilnüsdə sammitin açılışı ərəfəsində baş verib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsveçin NATO-ya qəbulu ilə bağlı ratifikasiya protokolunun ən qısa zamanda parlamentə göndərilməsinə və ratifikasiyasının təmin edilməsinə razılıq verib. Bunun müqabilində Stokholm Ankaranın Avropa Birliyinə üzvlüyünü dəstəkləməyə söz verib və Türkiyənin terrorçu hesab etdiyi təşkilatları bundan sonra müdafiə etməyəcəyini təsdiqləyib.

Sammitdə Rusiyanın NATO-nun təhlükəsizliyinə ən ciddi təhdid olduğu bildirilib. Bu barədə iştirakçı ölkələrin bəyanatında deyilir. Alyans Moskvanı Ukraynaya təcavüzdə günahlandırıb, Rusiya Federasiyası tərəfindən beynəlxalq hüququn pozulmasını pisləyib, Ukrayna ərazilərinin ilhaqını tanımadığını bəyan edib. Eyni zamanda NATO-nun kommünikesində qeyd olunur ki, Alyans Avro-Atlantik regionda və NATO ilə Rusiya arasında münasibətlərdə sabitlik yaranmasını istəyir.

Bundan əlavə, sənəddə NATO-nun qarşıdurmaya can atmadığı və Rusiya Federasiyası üçün təhlükə yaratmadığı vurğulanır. Müttəfiqlər əlavə ediblər ki, Moskva ilə münasibətlərdə istənilən dəyişiklik Rusiyanın aqressiv davranışını dayandırmasından və beynəlxalq hüquqa tam əməl etməsindən asılıdır. NATO Moskva ilə əlaqə kanallarını açıq saxlamağa hazırdır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hayastan ordusunda qalmaqallar səngimir

## Hərbi qulluqçular rüşvət qarşılığında müxtəlif vəzifələrə təyin edilirlər

**Hayastanda həmişəki kimi silahlı qüvvələrdə yenə də böyük problemlər yaşanır.**

Əsasən də, İrəvan parlamentində 44 günlük müharibənin nəticələrini araşdırmaq üçün yaradılan istintaq komissiyasından sonra yüksəkrütbəli hərbçilər onlar barədə cinayət işinin açılacağından narahatdırlar. Başqa sözlə, erməni generallar hakimiyyətə o qədər də etibar etmirlər. Məğlub ordunun yüksəkrütbəli zabitləri yaxın zamanlarda vəziyyətin dəyişəcəyindən və məsuliyyətə cəlb olunacaqlarından qorxurlar.

Elə bu günlərdə 44 günlük müharibə ilə bağlı yaradılan istintaq komissiyasına ifadəsindən sonra baş nazir Nikol Paşinyanın ünvanına erməni siyasi dairələri tərəfindən müxtəlif tənqidlər səslənməyə başlandı. Xüsusilə, baş qərargahı hədəfə alan Paşinyan müharibə dövründə ona yalan məlumat verildiyini dedi.

Keçmiş baş qərargah rəisi Onik Qasparyan dərhal ittihamlara cavab verərək Paşinyanın yalan danışdığını söylədi və müxtəlif arqumentlərlə özünə haqq qazandırmağa çalışdı. Bundan sonra baş qərargahın keçmiş rəis müavini Tiran Xaçaturyan da məsələyə münasibət bildirdi və hökumətin orduya biganə münasibətindən danışdı. Hökuməti sərt tənqid edən Xaçaturyan Paşinyanı orduya pul ayırmamaqda ittiham etdi. Onun ittihamlarına baş nazir aparatının informasiya və ictimaiyyətlə əlaqələr şöbəsi gec də olsa cavab verdi. Qeyd olundu ki, Xaçaturyanın söylədiklərinin arxasında siyasi motivlər gizlənir. Ordunun ehtiyaclarını ödəmək və prioritet nailiyyətləri reallaşdırmaq üçün pul ayırmadığı barədə yalan bəyanatların reallıqla heç bir əlaqəsi yoxdur. Bir neçə epizodda sonuncunun iddiaları onun baş qərargahın sabiq rəisi Onik Qasparyanın ictimai açıqlamaları ilə ziddiyyət təşkil edir. Tiran Xaçaturyan qondarma və əsassız iddialarla belə təəssürat yaratmağa çalışır ki, guya hökumətdən kifayət qədər vəsait ayrılmadığından silahlı qüvvələrin normal inkişafı əngəllənib.

Xatırladaq ki, istintaq komissiyasına parlamentin Müdafiə və Təhlükəsizlik Daimi Komissiyasının üzvləri daxildir. Komissiya 11 deputatdan ibarətdir, lakin deputatlardan biri müvafiq məxfilik rejiminə icazə almadığı üçün hazırda 10 üzvün tam səlahiyyəti var.

Bütün bunların fonunda orduda hərbi qulluqçuların müxtəlif vəzifələrə təyin edilməsi üçün böyük miqdarda rüşvət vermələri ilə bağlı çoxlu sayda qalmaqal yaşanır. Sosial şəbəkələrdə paylaşılan məlumatlar onu göstərir ki, Hayastan ordusunda rüşvətxorluq baş alıb gedir və Müdafiə Nazirliyi bunun qarşısını heç cür ala bilmir. Bildirilir ki, Hayastan silahlı qüvvələrinin hərbi hissələrində zabitlərdən yuxarı vəzifəyə təyin olunmaq, tabor komandiri olmaq üçün 7000, bölük komandir vəzifəsinə təyin olunmaq üçün 2500-4000, müqaviləli hərbi xidmət üçün isə 1000-2000 ABŞ dolları məbləğində rüşvət tələb edildiyi bildirilir. Sosial şəbəkələrdə yazılan məlumatlarda o da iddia edilir ki, yerindən asılı olaraq qiymətlər dəyişilə bilər. Yəni "yaxşı" yerə təyinat almaq üçün yüksək məbləğdə rüşvət tələb olunur. Maraqlı odur ki, Hayastan Müdafiə Nazirliyi həm rüşvətxorluq hallarına, həm də bununla bağlı yayılan məlumatlara heç bir reaksiya vermir.

Beləliklə, proseslər Hayastanda daxili siyasi vəziyyətin daha da gərginləşdiyini və İrəvanın sürətlə məhvinə doğru yaxınlaşdığını növbəti dəfə təsdiqləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Elmi adların verilməsində qanunsuz hallara yol verən vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb olunub

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri çərçivəsində Ali Attestasiya Komissiyasının İqtisad elmləri üzrə Ekspert şurasının üzvü - elmi katibi Şəfa Əliyevin qanunsuz əməlləri ifşa edilib.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, əməliyyat-istintaq tədbirləri ilə Şəfa Əliyevin işlədiyi qurumun vəzifəli şəxslərinin qərarlarına həqiqi təsir imkanlarından istifadə edərək müxtəlif şəxslərdən aldığı pul vəsaitləri müqabilində onlara elmi dərəcələrin verilməsinə nail olmasına və vəzifə səlahiyyətlərindən sui-istifadə etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı başlanmış cinayət işi üzrə toplanmış sübutlar əsasında Şəfa Əliyev Cinayət Məcəlləsinin 312-1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə barəsində ev dustaqlığı və vəzifədən kənarlaşdırma qətimkan tədbirləri seçilib.

Hazırda iş üzrə qanunazidd hərəkətlərə yol vermiş digər şəxslərin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*




**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# "Bakı Toxucu" QSC-nin səhmdarlarının nəzərinə!

26 avqust 2023-cü il tarixdə saat 12:00-da "Bakı Toxucu" QSC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Bakı Toxucu" QSC-nin 2022-ci ilin hesabatı və digər məsələlər.
2. Dividend bölüşdürülməsi.

**Ünvan: Bakı şəhəri, Bül-bülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi, 47**
**Telefon: (012) 458-14-21**

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

## balansında olan "Qarabağ" və "Balakən" bərə gəmilərinin MAN 5S26MC baş mühərriklərin ehtiyat hissələrinin satın alınması məqsədilə

## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 iyul 2023-cü il Bakı vaxtı ilə saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə və ailə üzvlərinə əzizləri

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov Fikrət Əzizova qardaşı

**RAMİZ ƏZİZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK-nin sədri Musa Mirzəyevə bacısı

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4958**
**Sifariş 1721**

**Qiyməti 40 qəpik**